www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 dekabr 2025-ci il Cümə axşamı № 230 (8840) Qiymәti 60 qәpik

**Xəbər**

## Amnistiya aktı bu tarixdə hazır olacaq - müzakirələr başlayır

yazısı səh.12-də

# ABŞ-DƏN BAKI VƏ İRƏVANA ŞOK XƏBƏRDARLIQ - "RUSİYA VƏ İRAN..."

Şimal və cənub qonşularımız sülh yolunda əldə edilən böyük sıçrayışı bloklamağa hazırlaşır - məkrli planın şifrələri




yazısı səh.9-də

## Deputatlardan "toy mafiyası"na üsyan: cəmiyyətin, yoxsa dövlətin problemi?

Şadlıq evlərində israfçılıq azalmır; tonlarla qida tullantıya çevrilir, bahalı dekorasiya və şou proqramlar ailələri ağır maliyyə yükü altında qoyur - çıxış yolu

yazısı səh.14-də

**Gündəm**

### Tehrandan Zəngəzur dəhlizinə növbəti hədə



Mühafizəkar qanadla hökumətin "Tramp yolu"na baxışı niyə üst-üstə düşmür?

yazısı səh.8-də

### Azərbaycanlı prezident Azərbaycana görə hədəfə alındı

yazısı səh.6-da

### Moskvanın Bakıdan "Rus evi" israrı - dekabrın 25-dək...

yazısı səh.7-də

### Bakı xarici ticarət üçün "vahid pəncərə" yaradır - hədəf

yazısı səh.12-də

### Xristian təşkilatından anti-Azərbaycan demarşı - bir bu qalmışdı...

yazısı səh.7-də

### Estetik əməliyyatlara aludəçiliyin ağır fəsadları - xanımlar oxusun!

yazısı səh.15-də

### DİM "İmtahan əməliyyatı"nın detallarını açıqladı

yazısı səh.11-də

### Paytaxtda yayılan xəstəlik təhlükəli H3N2 virusudur?

yazısı səh.15-də

### Dövlət bankı ilə bağlı risklər açıqlandı

yazısı səh.2-də

### Oliqarx oğlu və vəkilləri məhkəməyə gəlmədi

yazısı səh.3-də

### Diqqət! Bu dərmanları təyyarəyə buraxmayacaqlar

yazısı səh.13-də



### Ramiz Mehdiyevin "gözəl xasiyyəti" - keçmiş səfirdən mədhiyyə

yazısı səh.4-də



Samvel Karapetyan

### Kreml həbsdəki erməni üçün çırmandı - Bakıdan reaksiya

yazısı səh.6-da



*Novella Cəfəroğlu:*

### "Ailə o vaxt qız uşağını yük kimi görür ki..."

yazısı səh.13-də



## Prezident BƏƏ lideri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkədə səfərdədir.**

APA-nın Əbu-Dabiyə ezam olunmuş əməkdaşı xəbər verir ki, dekabrın 17-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub. Sonra Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin dövlət başçıları "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

## Bir ailənin dörd üzvü zəhərlənib

**Tovuzda bir ailənin 4 üzvü dəm qazından zəhərlənib. Modern.az xəbər verir ki, hadisə dekabrın 16-da Qovlar şəhərində baş verib. Qəsəbə sakinləri 1985-ci il təvəllüdlü Qaroğlan Zeynalov, arvadı 1997-ci il təvəllüdlü Aygül Həsənova və iki övladı dəm qazından zəhərləniblər. Onlar xəstəxanaya yerləşdiriliblər, vəziyyətləri qənaətbəxşdir. Araşdırmalar aparılır.**

## Gəmi kapitanı və daha iki nəfər həbs edilib



**Azərbaycanda siqaret qaçaqmalçılığında ittiham edilən daha 3 nəfər həbs edilib. APA-nın əldə etdiyi məlumata görə, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılan cinayət işi üzrə siqaret qaçaqmalçılığı ilə bağlı axtarışda olan şəxslər - gəmi kapitanı Elşən Əhmədov, matros Amid Sayılov və mexanik Elçin adlı şəxs hava limanında saxlanılıblar. Onların barəsində həbs-qətimkan tədbiri seçilib.**

Həmin şəxslərin "RR Caspi" MMC-nin işçiləri olduğu bildirilir. İttihama görə, onlar qaçaqmalı Ələt qəsəbəsində yaradılmış yanalma körpüsünə gəmi ilə gətirib, orada 3 yük maşınına yükləyiblər. Gəminin də "RR Caspi" MMC-yə məxsus olduğu bildirilir. Onlara Cinayət Məcəlləsinin 206.3.2, 213-1.2.1 ve 213-1.2.3 cu maddələri üzrə ittiham elan olunub. İş üzrə, həmçinin Səmayə Co LTD MMC, Səmayə logistic MMC-nin adları da keçir.

Qeyd edək ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq olunan cinayət işi üzrə bir qədər əvvəl Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsinin bölmə rəisi və bölmənin nəzarətçisi də saxlanılıb. Kapitan Vüsal Sadıqov və nəzarətçi barəsində qətimkan tədbirləri seçilib.

## Şekerinska Azərbaycana səfər edəcək




**NATO Baş katibinin müavini Radmila Şekerinska növbəti ilin birinci yarısında Azərbaycana səfər edəcək. Bu barədə NATO-nun ofisindən APA-nın sorğusuna cavab olaraq bildirilir. Qeyd olunub ki, məqsədəuyğun bir zamanda məsələ ilə bağlı əlavə detallar veriləcək.**

## Xəzər sahilində narkokuryer saxlanıldı




**Su Nəqliyyatında Polis İdarəsi Zığ Limanında Xətt Polis Bölməsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, polisə xidməti əraziyə daxil olan Xəzər dənizinin Bibiheybət qəsəbəsi sahilində narkotikləri satış məqsədi ilə əldə edərək özündə saxlayan paytaxt sakini 27 yaşlı Fazil Əlizadə saxlanılıb. Həmin şəxsdən 2 kiloqrama yaxın narkotik vasitə heroin, marixuana və psixotrop maddə metamfetamin aşkarlanıb. Faktla bağlı cinayət işi başlanılıb araşdırmalar davam etdirilir.**

# Dövlət bankı ilə bağlı risklər açıqlandı




**"S&P Global Ratings" "Azər-Türk Bank" ASC (ATB) üzrə uzunmüddətli və qısamüddətli emitent kredit reytinqlərini "B+/B" səviyyəsində təsdiqləyib, proqnozu sabit saxlayıb.**

"APA-Economics"in məlumatına görə, qərar bankın SOCAR tərəfindən 51% payla alınmasından sonra yeni strategiya formalaşdırdığı mərhələdə maliyyə və biznes göstəricilərinin əsasən dəyişməyəcəyi gözləntisinə əsaslanır. SOCAR-ın ATB-də pay alması 2025-ci ilin oktyabrında korporativ reyestr və nizamnamə dəyişiklikləri yolu ilə yekunlaşıb. Yeni idarəetmə komandası fəaliyyətə başlasa da, baş icraçı direktor (CEO) vəzifəsi hələ vakantdır.

S&P bildirir ki, ATB hazırda SOCAR-la əməliyyat bankçılığına və qeyri-neft sektorunda kiçik və orta sahibkarlığın kreditləşdirilməsinə yönələn yeni strategiya üzərində işləyir. Agentlik strategiyanı bankın gələcək bazar mövqeyinə və gəlirliliyinə real təsirini elan edildikdən sonra qiymətləndirəcək.

Reytinq agentliyinin proqnozuna görə, növbəti 12 ayda bankın kapitallaşma və risk mövqeyi əsasən sabit qalacaq. Risklə ölçülmüş kapital göstəricisinin (RAC) 2026-cı ildə 6-7,5% aralığında olacağı gözlənilir (2024-cü ilin sonunda 6,6%). Bu göstərici əsasən kredit portfelinin artım tempindən və mümkün kapital dəstəyindən asılı olacaq.

**S&P eyni zamanda qeyd edir ki, əvvəlki illərdə sürətli kredit artımı fonunda problemli kreditlərin payı arta bilər:** "Problemli kreditlərin payı 2024-cü ilin sonunda 2,2% olduğu halda, 2025-ci il sentyabrın sonuna 3,2%-ə yüksəlib və növbəti 12-24 ayda 4%-ə çata bilər. Artım əsasən korporativ və istehlak kreditləri üzrə keyfiyyətin zəifləməsi ilə izah olunur".

Agentlik ATB-ni SOCAR üçün strateji əhəmiyyət daşımayan törəmə qurum hesab edir və buna görə də reytinqlərdə SOCAR-dan əlavə dəstək nəzərə alınmır. Hökumətin bankdakı payının 75%-dən 24%-ə endirilməsi fonunda dövlət dəstəyi ehtimalı da aşağı qiymətləndirilir.

S&P xəbərdarlıq edir ki, əgər yeni strategiya bankın kapitallaşmasına və aktiv keyfiyyətinə təzyiq göstərərsə və ya SOCAR-ın mülkiyyəti real biznes üstünlüklərinə çevrilməzsə, reytinqlər aşağı salına bilər. Eyni zamanda yaxın 12 ay ərzində reytinq artımı ehtimalı aşağı qiymətləndirilir.



## Bu gün 12 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında dekabrın 18-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 3-6° isti, gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi 774 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 60-65% olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 7-10° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

## Azərbaycandan Türkiyəyə qaz ixracı azalıb



**2025-ci ilin oktyabr ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycandan Türkiyəyə təbii qaz ixracında 1,17% azalma olub.**

Teleqraf Türkiyənin Enerji Bazarını Tənzimləmə Qurumunun (EPDK) hesabatına istinadən xəbər verir ki, Azərbaycan Türkiyənin qaz idxalında ikinci olub.

Bu ilin oktyabrında Azərbaycandan Türkiyəyə 996,80 milyon kub metr təbii qaz ixrac edilib.

Tədarükdə 4,83% azalmaya baxmayaraq, Rusiya Türkiyənin ən böyük tərəfdaşı olub. Bu ölkədən 1 milyard 628,50 milyon kub metr təbii qaz alınıb.

Qonşu ölkənin digər tədarükçüsü olan İrandan 820,11 milyon kub metr təbii qaz alınıb. İdxalda 5,33% azalma olub.

Türkiyə bir sıra ölkələrdən mayeləşdirilmiş təbii qaz (LNG) da idxal edib. Əlcəzairdən 363,55, Seneqaldan 100,94, ABŞ-dən 98,35, Misirdən isə 96,57 milyon kub metr LNG alıb.

Beləliklə, Türkiyənin qaz idxalında Rusiya 39.67%, Azərbaycan 24.28%, İran 19.98%, Əlcəzair 8.86%, Seneqal 2,46%, ABŞ 2,40%, Misir isə 2,35% paya sahib olub.

Qeyd edək ki, "Şahdəniz" yatağından hasil edilən Azərbaycan qazı Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) ilə Türkiyəyə, oradan isə Avropaya ötürülür.



Nemət Kərimli

## Vəkili təhqir edən jurnalist həbs edildi

**Sosial şəbəkədə vəkil Nemət Kərimli və onun yaxınlarının ünvanına təhqiramiz ifadələr yazan 1994-cü il təvəllüdlü jurnalist İmamət İsmayılovanın məhkəməsi keçirilib.**

Modern.az xəbər verir ki, Suraxanı Rayon Məhkəməsində onun barəsində xüsusi ittiham qaydasındakı şikayətə baxılıb.

Müəyyən edilib ki, İ.İsmayılova Facebook sosial şəbəkəsində "Söz soxmaq üzrə mütəxəssis", "Çekist xanım", "Tülkügöz" və digər saxta istifadəçi adlar, profil və hesablar yaradıb. O bu hesablarda kütləvi nümayiş etdirməklə vəkil Nemət Kərimli və onun qohumlarının ünvanına təhqirlər yazıb.

Həmçinin məlum olub ki, İmamət İsmayılova ilə vəkil arasında reallıqda heç bir mübahisə və ya münaqişə baş verməyib. İ.İsmayılova başqa şəxslərdən eşitdiyi hansısa informasiya əsasında belə addım atdığını deyib.

Bundan başqa, qeyd edilib ki, İ.İsmayılova bu ilin iyul ayında da oxşar əməllərə görə 6 aylıq həbs edilib.

Suraxanı Rayon Məhkəməsinin hökmü ilə İ.İsmayılovaya bu dəfə 4 ay həbs cəzası verilib. Onun vaxtı başa çatmamış cəzası ilə yeni cəzası birləşdirilərək qəti olaraq 8 ay həbsə məhkum edilib.

Qeyd edək ki, İ.İsmayılova daha əvvəl bir sıra saytlarda jurnalist kimi çalışıb.



## İrandan narkotik keçirilməsinin qarşısı alındı

**Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin əməkdaşları tərəfindən Sərhəd Qoşunları Komandanlığının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 24 kiloqram 115 qram narkotik vasitənin İrandan Azərbaycana keçirilməsinin qarşısı alınıb. Dövlət Sərhəd Xidməti (DSX) ilə Dövlət Gömrük Komitəsinin (DGK) yaydığı birgə məlumatda bildirilib. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# Oliqarx oğlu və vəkilləri məhkəməyə gəlmədi - 6-cı dəfə ekspertiza təyin olundu!

**Bakı Apelyasiya Məhkəməsində hakim İkram Şirinovun sədrliyi ilə SOCAR-ın sabiq vitse-prezidenti Mikayıl İsmayılovun oğlu Orxan İsmayılzadənin cavabdeh olduğu iş üzrə məhkəmə prosesi keçirilib.**



Musavat.com xəbər verir ki, cavabdeh Orxan İsmayılzadə, onun vəkilləri prosesə qatılmayıblar. Hakim İkram Şirinov prosesi onların iştirakı olmadan keçirilməsi barədə qərar verib. Məhkəmədə iştirak edən iddiaçı Fidan Abbasova qarşı tərəfin iş üzrə əvvəllər keçirilmiş məhkəmə iclaslarına qatılmadıqlarını bildirib. Hakim iş materiallarını, cavabdeh tərəfin kasasiya şikayətində göstərdiyi xüsusatları araşdıraraq Orxan İsmayılzadənin DNT ekspertizasından keçirilməsi barədə qərar çıxarıb.

Bu, Orxan İsmayılzadənin cavabdeh olduğu iş üzrə ayrı-ayrı məhkəmə instansiyalarının çıxardığı sayca 6-cı DNT qərarıdır.

Digər 5 ekspertizanın keçiriləcəyi yer və saat barədə Orxan İsmayılzadəyə məlumat verilsə də, o, həmin ekspertizaların işində iştirak etməyib. Vəkilinin Ali Məhkəməyə yazdığı kasasiya şikayətində Orxan İsmayılzadənin təyin olunmuş ekspertizalardan məlumatsız olması və işin yenidən araşdırılması istənilib.

İddiaçı Fidan Abbasova Musavat.com-a deyib ki, bu günə qədər məhkəmələr 5 dəfə atalıq testi təyin edib. Orxan İsmayılzadə isə həmin ekspertizaların işinə heç bir üzrlü səbəb göstərmədən qatılmayıb.

Fidan Abbasova bildirib ki, Orxan İsmayılzadə DNT testindən keçməkdən yayınmaqla vaxt uzadır.

Bundan başqa, oliqarx, SOCAR-ın sabiq vitse-prezidenti Mikayıl İsmayılovun oğlu Orxan İsmayılzadənin üzərinə qızı Nil İsmayılzadənin saxlanması üçün aylıq olaraq 500 manat aliment ödəməsi öhdəliyi də qoyulub. Lakin oliqarx oğlu verilmiş qərarla razılaşmayaraq Ali Məhkəməyə üz tutub. DNT testlərinin keçirilməsi haqda xəbərsiz olması əsası ilə əvvəl verilmiş qərarın ləğvini istəyib. Ali Məhkəmə oliqarx oğlunun şikayətini təmin edib və işə yenidən baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə qaytarıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# Lukaşenkoda “yatmış ayı” mesajı - Ukraynaya çağırışın məğzi nədir?



**Belarus prezidenti Aleksandr Lukaşenkonun son açıqlaması xüsusi diqqət çəkib. O, Nyus Maks TV-yə açıqlamasında Rusiya ilə qonşu olan Ukraynaya məsləhət verərək deyib: “Mən sizə köhnə siyasətçi kimi deyirəm. Əgər yatmış ayının yanında yaşayırsınızsa, onu oyatmayın, normal münasibət qurun”.**

A.Lukaşenkonun bu açıqlaması sadə məsləhət formasında səslənsə də, arxa planında çoxqatlı siyasi mesajlar və maraqlar dayanır. O da məlumdur ki, onun “yatmış ayını oyatmayın” ifadəsi birbaşa Rusiyanı nəzərdə tutur və Ukraynaya yönəlik həm xəbərdarlıq, həm də dolayısıyla ittiham xarakteri daşıyır.

Bəs Lukaşenkonun bu açıqlaması nəyə hesablanıb?

Mövzu ilə bağlı Musavat.com-a danış **politoloq Elxan Şahinoğlu** xatırladıb ki, Rusiya-Ukrayna müharibəsi başlayanda Lukaşenko özünü vasitəçi kimi təqdim etmək istəyirdi: “O, bu müharibənin Belarus üçün ciddi mənfi nəticələr doğura biləcəyini əvvəlcədən anlayırdı. Bir tərəfdən Rusiya Belarusa açıq və gizli təzyiqlər göstərirdi ki, Minsk Moskvanın yanında yer alsın və onu açıq şəkildə dəstəkləsin. Digər tərəfdən isə bu mövqe Lukaşenko üçün olduqca riskli idi. Çünki Belarus cəmiyyətində, xalq arasında bu müharibəyə münasibət mənfidir: belaruslar Rusiyanın Ukraynaya qarşı apardığı müharibəni dəstəkləmirdilər və indi də dəstəkləmirlər.

Məhz bu səbəbdən Lukaşenko müharibənin ilk mərhələsində ehtiyatlı davranmağa, açıq şəkildə tərəf tutmamağa çalışırdı. Sonrakı mərhələdə isə o, formal olaraq Rusiya prezidentinin yanında yer alsa da, əslində bu müharibənin əleyhinə olan mövqedə qaldı. Yəni Lukaşenkonun davranışı ziddiyyətlidir: zahirdə Kremlə yaxınlıq nümayiş etdirir, daxilən isə bu müharibənin Belarus üçün təhlükəli və yanlış olduğunu anlayır. Lukaşenkonun son açıqlamaları da məhz bunu təsdiqləyir".

Politoloqun fikrincə, onun “yatmış ayını oyatmamaq” barədə dedikləri əslində Rusiyadan çəkinməsinin və bu güc faktorunu hamıdan yaxşı dərk etməsinin göstəricisidir: “Belarus iqtisadi və siyasi baxımdan Rusiyadan son dərəcə asılı vəziyyətdədir. Enerji resursları, maliyyə dəstəyi, təhlükəsizlik məsələləri Minsk üçün həyati əhəmiyyət daşıyır. Lukaşenko çox yaxşı bilir ki, əgər o, açıq şəkildə Rusiyanın, daha dəqiq desək, Putinin əleyhinə çıxsa, bunun ağır nəticələri olacaq və Kreml onu cəzalandırmaq imkanına malikdir.

Məhz buna görə də Lukaşenko sözdə Rusiyanın yanında dayanmağa məcburdur. Bu, onun könüllü seçimi yox, siyasi və geosiyasi reallıqlardan doğan məcburiyyətdir. Ukraynaya verdiyi “məsləhət” də əslində öz qorxularının və yaşadığı təzyiqlərin ifadəsidir: Rusiya ilə davranışda ehtiyatlı olmaq çağırışı edir. Ancaq Ukrayna artıq bu mərhələni geridə qoyub. Ölkə işğala məruz qalıb və mövcud vəziyyətdə onun üçün söhbət ehtiyatdan yox, müdafiə və mübarizədən gedir.

Lukaşenko isə bu prosesdə ilk növbədə öz hakimiyyətini və Belarus xalqını qorumağa çalışır. Ona görə də bu mövqedə dayanır, balans siyasəti aparmağa cəhd edir. Bununla belə, aydındır ki, o, daxilən Putinin apardığı siyasəti dəstəkləmir və bu işğalçı müharibənin yanlış olduğunu anlayır".

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**



# Kremlin və Kirilin böyük yalanı - Zelenski qəfil seçkiyə getsə...

**Rus Pravoslav Kilsəsinin başçısı patriarx Kirill insanlıq anlayışı ilə uyuşmayan qəribə açıqlama verib. Deyib ki, ruslar bu gün “son dərəcə firavan bir dövrdə yaşayırlar, çünki Vladimir Putin çar dövründən bəri ilk pravoslav prezidentdir”.**

Patriarx bu xüsusda sevincini gizlətməyib. “Bəzən hətta düşünürsən: ilahi, bu doğrudanmı gerçəklikdir? Ona görə də yaşadığımız ölkəyə görə də, açığını deyim, hakimiyyətə görə dəE və əlbəttə ki, bu gün Rusiyanın gördüyü bütün işlərə görə də Allaha minnətdar olmalıyıq”, - Kirill sanki vəcdə gələrək əlavə edib.

Ekzotik sözlərdir. Allah, əstəğfürullah, sən demə zalımları da mükafatlandırırmış. Təbii ki, ağ yalandır, nədən ki, bu cür düşünməyin özü belə, Yaradanın fitrətinə, onun göndərdiyi səmavi kitabların fəlsəfəsinə daban-dabana ziddir...

Adamdan soruşan gərək ki, heç Allaha inanan, ondan qorxan pravoslav prezident də pravoslav və dilbir xalqın başına 4 ildir od ələyər? Cənab Kirill bu barədə heç düşündümü? Ukraynalı uşaqların oğurlanması, dinc insanların, özəlliklə körpələrin, bütöv ailələrin məhv edilməsi, xəstəxanaların, doğum evlərinin, cərrahiyyə otaqlarının qışın günündə işıqsız, istiliksiz qoyulması bir Allah adamı kimi onun vicdanını heçmi sızıldatmadımı?

Axı onlar da pravoslavlardır. Yoxsa Kirill ukraynalıları kafir, bunca qəddarlığı da “firavanlıq təzahürü” sayır? Bu yerdə patriarxa kiçik xatırlatma: uşaqların oğurlanmasına görə Beynəlxalq Cinayət Məhkəməsi Rusiyanın prezidentinə və ombudsmanına qarşı cinayət işi açıb və onları beynəlxalq axtarışa verib...

Qayıdaq Rusiya təcavüzü səbəbindən başı bəlalar çəkməyə davam edən Ukraynaya. Məlumat gəlib ki, prezident Volodimir Zelenski Ali Radaya hərbi vəziyyət şəraitində seçki keçirməyin mümkünlüyü ilə bağlı qanun layihəsi hazırlamağı tapşırıb.

Qeyd olunur ki, təşəbbüs əslində əsasən siyasi xarakter daşıyır və Trampın ölkədə seçki keçirilməməsi ilə bağlı açıqlamalarına cavabdır. Səsvermənin keçirilməsi ilə bağlı hələlik real qərar yoxdur, çünki bu, hərbi fəallığın azaldılmasını tələb edəcək.

“Bild” isə yazıb ki, Zelenski Amerika təmsilçilərinə sülh müqaviləsinin imzalanmasından sonrakı 100 gün ərzində seçkilər keçirməyə hazır olduğunu bildirib. Ən son sorğulara görə, ukraynalıların 61%-i Volodomor Zelenskiyə etibar edir, eyni zamanda, əksəriyyət seçkilərin yalnız müharibə bitdikdən sonra mümkün olacağına inanır...

Rusiya əlbəttə, Zelenskinin tezliklə və hər hansı yolla hakimiyyətdən getməsini və ya uzaqlaşdırılmasını arzulayır. Hətta Kremlin Vaşinqtonla danışıqlarında bir gizli hədəf də Zelenskini daima Trampın qəzəbində saxlamaqdır. Ukraynaya hərbi müdaxilənin başlıca məqsədlərindən biri də elə bu olub - legitim hakimiyyəti devirmək.

Rusiya XİN-in rəsmi sözçüsü Mariya Zaxarova isə iddia edir ki, guya Zelenski hakimiyyətdə qalmağa can atır, lakin onun “qanuni şəkildə yenidən seçilmək şansı yoxdur”. Sual yaranır: hardan bilirsən? Ukrayna seçicilərinin ürəyinimi oxumusan?..

Bu, həmin Zelenskidir ki, Rusiya onu bir həftəyə aşırıb yerinə öz marionetini oturtmaq istəyirdi. Plan fiasko oldu. Üstəgəl, adam 4 ilə yaxındır öz xalqını, kollektiv Qərbi yanına alıb “Rus ayısı”na, total haqsızlığa və zülmə qarşı mərd-mərdanə mübarizə aparır, dirənir. Ona rəğbət yalnız arta bilər.

Zaxarova bəlkə korrupsiya qalmaqalına işarə edir? Mənasız ümiddir. Əminik ki, bu məsələdə Ukrayna liderinin azacıq əli varsa, o seçkiyə qatılmayacaq. Rəy sorğuları isə onun reytinqinin aşağı olmadığını göstərir. Deməli, ukraynalılar ittihamı ciddi qəbul eləmir...

Hərgah Zelenskinin seçkidə əsas rəqiblərindən sayılan Londondakı səfir, keçmiş Baş Komandan Valeri Zalujnının da nüfuzu aşağı sayılmaz. Ancaq maraqlıdır ki, Zaliujnı Rusiya işğalı, sülh, Donbas məsələlərində tamamən Ukrayna prezidentinin mövqeyindədir. Hətta daha sərt açıqlamalar verir. Bu da o anlama gəlir ki, Zelenksiyə ictimai dəstək yerindədir və boşuna deyil.

Odur ki, Rusiya rəsmiləri, eləcə də patriarx Kirilin timsalında onun “din xadimləri” arzularını reallıq kimi qələmə verməməkdənsə, öncə danışdıqlarına diqqət eləsinlər və ən əsası, Allahdan qorxsunlar. Ola bilməz ki, qovan da, qaçan da haqlı olsun. Onlardan biri günah yiyəsi. Kim? Hamı bilir. Erməni işğalının yekunu isə göstərdi ki, Uca Yaradan gec edər, amma güc edər...

❑ **Z. SƏFƏROĞLU**

# Erməni səfir: “Vaşinqton razılaşmasında Tehranın həyati maraqları nəzərə alınıb”



Qriqor Akopyan

**Vaşinqtonda əldə olunmuş razılaşmalar çərçivəsində İranın həyati maraqları nəzərə alınıb və bu proses boyunca Tehranla davamlı dialoq aparılıb.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistanın İrandakı səfiri Qriqor Akopyan İranın “Tasnim” agentliyinə müsahibəsində bildirib.

Səfirin sözlərinə görə, Ermənistan-İran münasibətləri uzun illərdir qarşılıqlı etimad və mehriban qonşuluq prinsiplərinə əsaslanır və rəsmi İrəvan bu münasibətləri strateji xətt kimi qiymətləndirir. Onun bildirdiyinə görə, Ermənistan rəhbərliyi regionda baş verən proseslər barədə İran tərəfini mütəmadi məlumatlandırır və xüsusilə təhlükəsizliklə bağlı həssas məqamlar diqqətdə saxlanılır.

Akopyan Azərbaycan-Ermənistan sülh prosesi barədə də danışaraq qeyd edib ki, 2025-ci ilin avqustunda Vaşinqtonda paraflanan sülh sənədi tərəflərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını tanımasını nəzərdə tutur. Onun sözlərinə görə, həmin razılaşma ilə tərəflər gələcəkdə qarşılıqlı ərazi iddialarından imtina ediblər və ATƏT-in Minsk prosesi strukturlarının ləğvi ilə bağlı birgə müraciət edilib.

Səfir regionda kommunikasiya xətlərinin açılması məsələsinə toxunaraq iddia edib ki, Vaşinqtonda imzalanmış üçtərəfli sənəddə Ermənistan ərazisindən keçən yol “dəhliz” kimi deyil, “TRIPP marşrutu” kimi təsbit olunub. Onun vurğuladığına görə, bu marşrut Ermənistanın tam suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyası çərçivəsində fəaliyyət göstərəcək və hər hansı başqa mexanizm nəzərdə tutulmur. Akopyan xüsusilə qeyd edib ki, bu yanaşma həm Ermənistanın, həm də İranın əsas maraqlarına uyğundur.

Erməni diplomatın sözlərinə görə, kommunikasiyaların açılması nəticəsində Ermənistan İranla dəmiryol əlaqəsi əldə edə, İran isə Cənubi Qafqaz və Qara dəniz istiqamətində yeni tranzit imkanları qazana bilər. Eyni zamanda TRIPP layihəsinə üçüncü tərəflərin cəlb olunması yalnız İrəvan və Vaşinqtonun razılığı ilə mümkündür.

Akopyan müsahibəsində Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesinə də toxunaraq bildirib ki, tərəflər arasında təmaslar intensivləşib, sərhəd və dəmir yolu infrastrukturu ilə bağlı texniki müzakirələr aparılır. Onun fikrincə, kommunikasiya layihələrinin reallaşması regionda yeni iqtisadi və siyasi reallıqlar formalaşdıra bilər.

# Kreml Avropa qoşunlarının Ukraynada yerləşdirilməsini “müzakirə mövzusu” sayır



Dmitri Peskov

**Qərbin Ukraynada sülh razılaşmasına nəzarət məqsədilə Avropa hərbçilərinin yerləşdirilməsi planları danışıqlar predmeti ola bilər.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə çərşənbə günü Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

“Ukrayna ərazisində xarici hərbi kontingentlərlə bağlı mövqeyimiz hamıya yaxşı məlumdur. Bu mövqe həm prezident, həm də digər səviyyələrdə dəfələrlə ifadə olunub. O, ardıcıldır və aydındır”, - deyə Peskov qeyd edib. Bununla belə, o əlavə edib ki, “yenə də bu, müzakirə mövzusudur”.

The New York Times yazır ki, Avropa qoşunları ABŞ və Ukrayna rəsmilərinin bu həftənin əvvəlində Berlində apardıqları danışıqlarda müzakirə olunan təhlükəsizlik zəmanətlərinin bir hissəsi kimi nəzərdə tutulur. Məlumata görə, Avropa ölkələrinin əsgərləri Ukraynanın qərbində, ehtimal olunan demilitarizasiya zonasından uzaqda yerləşdiriləcək, lakin Rusiyanın mümkün gələcək aqressiyasını çəkindirmə vasitəsi rolunu oynayacaq.

❑ **“Yeni Müsavat”**

# Ramiz Mehdiyevin “gözəl xasiyyəti” - sabiq səfirin Brejnev dövrünə xas mədhiyyəsi

**Səhnə: yuxarı başda üzərinə “Dostlarımın gözəl xasiyyətləri” sözləri yazılmış poster qoyulub, xitabət kürsüsündə o dövrdə Prezident Administrasiyasının şöbə müdiri Elnur Aslanov, yaxınlıqdakı stulda onun anası, o zaman deputat olan Rəbiyyət Aslanova və Elmira Axundova oturublar. Zalda Ramiz Mehdiyevin xeyir-duası ilə hökumətdə və parlamentdə postlar tutan xeyli vəzifə daşıyıcıları var. Elnur Aslanov Elmira Axundovanın kitab şəklinə saldığı, qəzet yazılarından ibarət toplusuna klassik sovet-rus natiqlərinə xas tərzdə tərif yağdırır, Ramiz Mehdiyevin şəninə 5 mərtəbəli xoş sözlər səslənir.**



РАЗМЫШЛЯЯ О ДЕМОКРАТИИ:

от теории к практике созид...

ЭЛЬМИРА АХУНДОВА
ДРУЗЕЙ МОИХ ПРЕКРАСНЫЕ ЧЕРТЫ...

*Всегда считали философию достаточно скучной и сугубо академической наукой, к тому же имеющей фундаментальное, теоретическое предназначение. С институтских времен не слишком жаловала философские труды, особенно книги отечественных ученых, досадуя на их оторванность от живых процессов, происходящих в стране и мире, на шаблонность и ограниченность мышления, сухость и монотонность изложения материала. Встречая порой в российской и западной прессе интересные статьи зарубежных политологов, прочитав несколько нашумевших книг столпов американской мировоззренческой элиты вроде Ф.Фукуямы или З.Бжезинского, часто задавала себе вопросы: почему азербайджанские ученые не могут писать столь же ярко, оригинально, проводя обобщения и делая анализ в контексте и на уровне мировых достижений философии и смежных наук? А главное: наводя мосты между своими теоретическими рассуждениями и живой практикой происходящих в республике политических и социально-экономических процессов.*

На этом достаточно тусклом фоне весьма заметными явлениями последних лет стали книги Рамиза Энвер оглы Мехтиева - доктора философских наук, профессора, действительного члена Национальной академии наук Азербайджана. Его труды "Азербайджан: историческое наследие и философия независимости" (2001), "Азербайджан: вызовы глобализации" (2004), "Парламентские выборы 2005: предварительный анализ" (2006), "Идеи, открывающие дорогу к гражданскому обществу" (2006) и др. явились серьезной ... на создание собственной концепции, модели ...ического развития независимого Азербайджан... новый прорыв, новый фундаментальный труд Ра... "На пути к демократии: размыш-

Zaldakı yoldaşların gurultulu, sürəkli alqışları səngimir. Onlar bu toplunun zorən alıcılarıdır..

O zalda deyilənlər topluda Ramiz Mehdiyev haqda yer alan mətn - mədhiyyənəmənin yanında xəfif iltifatdır.

Mətndə yer alan fikirlər marksizm-leninizmə sədaqət andı, Qərb və “burjua ideologiyası”nın ifşası ruhunun yenilənmiş versiyasıdır. Qalanı isə müəllif Axundovanın “xarici ideoloji düşmən”ə hədəflənən “dahi rəhbər”in “uzaqgörənliyi”ndən bəhs edir.

Ramiz Mehdiyevi ağsaqqalı sayan, ona “donos”lar yazan Elmira Axundova “boz kardinal”ı “Qərb ideologiyalarına meydan oxuyan nadir intellektual fiqur” kimi təqdim edir.

**Baxaq görək, Mehdiyevin “gözəl xasiyyəti” nə olub ki, yazıçı onun haqqında yazıb. Axundovanın toplusundan, kstati, rusca yazılmış mətndən bir hissəni oxuyuruq:**

“Akademik Ramiz Mehdiyev bu nəzəriyyələrin bir çoxuna elmi cəsarətlə meydan oxuyur və haqlı olaraq sual edir: "Birqütblü dünya sistemi qlobal dünyanın kifayət qədər proqnozlaşdırıla bilməsini, təhlükəsizliyini və sabitliyini təmin edirmi, yoxsa burada yalnız ənənəvi təhdid və risklər artmır, eyni zamanda prinsipial olaraq yeni və uzunmüddətli böhran tendensiyaları da formalaşır?"

“Bu suala cavab axtarışında müəllif bu gün yalnız müsəlman Şərqindən deyil, paradoksal görünsə də, öz ideyalarının monomərkəzliliyi, demokratiya ixracı, "rəngli" inqilabların zorla tətbiqi və çox vaxt şüurlu demokratik tranzitə hazır olmayan cəmiyyətlərə yeridilən kor-koranə vesternləşmə ilə səciyyələnən maarifçi-demokratik Qərbdən qaynaqlanan təhlükə və çağırışları obyektiv qiymətləndirir. Postsovet məkanında müxtəlif “məxməri” transformasiyaların hərtərəfli təhlili nəticəsində monoqrafiya müəllifi olduqca inandırıcı, məntiqli şəkildə əsaslandırılmış nəticələrə gəlir. Birincisi, alim (Ramiz Mehdiyevi nəzərdə tutur - E.M.) əmindir ki, “demokratik ideyalar yalnız tarix, milli özünüdərk, mentalitet və xalqın ənənələri ilə uzlaşdıqda uğurla mənimsənilə bilər. Çünki yad mühitə salınmış ideologiya heç də həmişə və dərhal "doğma orqanizmdə" kök sala bilmir". İkincisi, bəzi siyasətçilərin sivilizasiyaların toqquşması, digərlərinin isə vahid sivilizasiya uğrunda mübarizə kimi qiymətləndirdiyi qloballaşma və vesternləşmə prosesi olduqca qeyri-müəyyəndir. Bu prosesin mürəkkəb mexanizmlərində və gizli yaylarında yeni müstəqil dövlətlər məkanında siyasətlə məşğul olan insanlar üçün birtərəfli və düşünülməmiş vesternləşmədən yayınmaq son dərəcə vacibdir; çünki bu, hər hansı xalqın milli özünəməxsusluğuna və milli identikliyinə böyük zərər vurur. Kitabın son fəsilləri Azərbaycan dövlət və ictimai-elmi elitası üçün xüsusi, praktik maraq kəsb edir. Burada respublikamızın müstəqillik əldə etdikdən sonrakı illərdə keçdiyi yol, milli demokratik tranzitin xüsusiyyətləri təhlil olunur, XXI əsrdə dövlətin formalaşması və inkişafının əsas vektorları və strategiyası müəyyənləşdirilir".

Göründüyü kimi, mətn boyu Ramiz Mehdiyevin tezislərinə elmi polemika yoxdur, tənqid obyektinə yalnız sovet dövründə olduğu kimi, “qərb”, “vesternləşmə”, “transmilli güclər” çıxarılır və “ağsaqqal”ın dahiliyi ən üst mərtəbəyə qaldırılır.

Aydındır ki, bu cızma-qara yalnız öz eqoist, karyerayönümlü məqsədləri üçün toplu halına salınıb. Axı Ramiz Mehdiyevin adı olan toplunu ona sədaqət andı içmiş məmur ordusuna sırımaq Axundovanın əlində 2x2 qədər asan olub. Bütün bu “elmi-nəzəri” pərdələnmə, Brejnev dövrünə xas mədhiyyə dili əslində çox konkret və praqmatik bir məqsədə xidmət edib. Elmira Axundovanın Ramiz Mehdiyev haqqında yazdıqları nə akademik polemikadır, nə də ideoloji mübahisə. Bu, siyasi biət mətnidir. Bu biətin real qarşılığı isə praktik nəticələrdə özünü göstərib. Oğlu Həbibin, özünün birbaşa adının hallandığı 8 milyonluq dələduzluq işinin faktiki olaraq nəticəsiz qalması Mehdiyevə sədaqət andının dividentləridir.

Bu cür mədhiyyələrin nəticəsi idi ki, təpədən-dırnağa qədər rusiyapərəst mövqeyi ilə tanınan Axundova Rusiyanın Ukraynaya qarşı müharibəsi ərəfəsində strateji baxımdan həssas ölkəyə səfir göndərildi. Beləliklə, “Ramiz Mehdiyevin gözəl xasiyyəti” yalnız ideoloji mətndə qurulan mif deyil, konkret karyera təhlükəsizlik qalxanı, siyasi sığorta paketidir. Axundovanın yazılarında Qərbə atılan daşlar, vesternləşməyə qarşı sovetvari qəzəb, “milli identiklik” adı altında qorunan avtoritar reflekslər - bunların hamısı bir mərkəzdən idarə olunan köhnə sxemin tərkib hissəsidir. Bu sxemdə Ramiz Mehdiyev “ağsaqqal”, Elmira Axundova isə onun ideoloji notariusu rolundadır. Mədhiyyə siyasi texnologiyadır. Əsas məqsədi bir daha sübut etməkdir: Azərbaycanda hələ də bəzi çevrələr üçün “gözəl xasiyyət” həqiqətin yox, sadiqliyin aynasıdır.





❑ **E.MƏMMƏDƏLİYEV,
Musavat.com**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025



## Tofiq Zülfüqarov: “Meğri dəmir yolu bizimdir”

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov rəsmi Moskvanın Meğri istiqamətində dəmir yolu ilə bağlı mövqeyinə münasibət bildirib. O xatırladıb ki, Rusiya tərəfi gözlənilmədən Meğri dəmir yolu sahəsini “Rusiya Dəmir Yollarının (RJD) mülkiyyəti” kimi təqdim etməyə başlayıb.**

T.Zülfüqarov bu yanaşmanın hüquqi əsası olmadığını vurğulayaraq həm Ermənistan tərəfinə, həm də Rusiyaya xatırlatma edib: “Rəsmi Moskva birdən xatırladı ki, "Meğri sahəsi" dəmir yolu “RJD”nin mülkiyyətidir"... İstərdim ki, həm erməni tərəfinə, həm də Rusiya tərəfinə xatırladım: bu dəmir yolu Az.SSR-in və onun hüquqi varisi olan Azərbaycan Respublikasının mülkiyyətidir".

Keçmiş nazir bildirib ki, Azərbaycanın bu mülkiyyət üzərində hüquqları beynəlxalq sənədlərlə təmin olunub: “Bizim mülkiyyət hüquqlarımız Almatı Bəyannaməsinə əlavə edilmiş sənədlərlə zəmanət altına alınıb”.

Tofiq Zülfüqarov vurğulayıb ki, qeyri-qanuni şəkildə zəbt edilmiş əmlak sonradan başqa bir dövlət tərəfindən özəlləşdirilə bilməz: “Qanunsuz olaraq ələ keçirilmiş mülkiyyət Rusiya Federasiyası tərəfindən özəlləşdirilə bilməz”.

# Sərhəddəki erməni kəndləri sürətlə boşalır - nəyin hazırlığı?

## Revanşistlər sülh prosesinə zərbə vurmaq üçün yeni bəhanələr axtarır - Bakıdan xəbərdarlıq



**“Ermənistanın Azərbaycanla sərhədyanı ərazilərindəki kəndləri sürətlə boşalır”. Bunu “Bizim yol” hərəkatının koordinatoru Narek Karapetyan deyib. Onun sözlərinə görə, kəndlərin boşalmasına birinci səbəb guya Azərbaycan Ordusundan qorxudur. “İllərdir Gorus xalqı türk görmürdü və bu gün Teğ (Dığ-red.) kəndindən kənarda bir dənə də olsun erməni yaşamır”. Karapetyan işsizliyin də prosesə təsir etdiyini bildirib. O deyib ki, hökumət sanki bunu məqsədli şəkildə edir. Həbsdə olan rusiyalı milyarder, “Taşir” qrupunun rəhbəri Samvel Karapetyanın qohumu kimi tanınan Narek Karapetyan bu çıxışı ilə ictimai rəyi manipulyasiya etmək istəyib. Halbuki ötən həftə baş nazir Paşinyan Kirants kəndində olub, əhali ilə görüşüb və Azərbaycan əsgərinin olduğu mövqeyə yaxın yerdə dayanaraq çıxış edib. Baş nazir əmin edib ki, sərhəddə eskalasiya gözlənilmir, sülh quruculuğu prosesi gedir və kənd camaatının köçəcəyi haqda əvvəldən deyilən şayiələr də özünü doğrultmadı. Bununla belə, Ermənistanda müxalifət təbliğat aparır ki, sərhəd kəndləri boşalır, guya Azərbaycan Ordusu Ermənistan ərazilərinə daxil olacaq. Ermənilərin sülh əleyhinə bu təbliğatı və sərhəd bölgələrində yaşayan insanları qorxutmaq niyyəti hansı məqsədə xidmət edir?**

Burada kənar təsirlər ola bilərmi? Faktiki olaraq şərti sərhədlərdə Avropa İttifaqının mülki missiyası - əslində isə kəşfiyyat dəstələri - var. Onlar hansısa gərginliyi müşahidə etsəydilər, hay-küy qoparardılar. Azərbaycanın isə sülhə sadiqliyi Ermənistana da bəllidir.

Prezident İlham Əliyevin Qazaxıstan səfəri zamanı Ermənistana yük daşımalarına olan məhdudiyyətin aradan qaldırılması ilə bağlı qərarı açılmasından sonra Ermənistana Azərbaycandan keçməklə taxılın ixracı başlayıb. Eyni zamanda Azərbaycandan Ermənistana neft və neft məhsullarının ixracı məsələsi bu yaxınlarda (28 noyabr) Qəbələdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevlə Ermənistan baş nazirinin müavini Mher Qriqoryan arasında keçirilən görüşdə müzakirə olunub. Ekspertlər düşünürlər ki, məhz Qazax-İcevan yolu Ermənistana taxıl və neft daşıması üçün ən yaxşı yoldur və bərpa edilməlidir. Görünən budur ki, Ermənistandakı revanşistlər sülh prosesinə zərbə vurmaq üçün fürsət axtarır.

Belə bir durumda gərginliyin anonsu verilir. Hesab olunur ki, Rusiyanın Ermənistandakı seçqiqabağı planları da şərti sərhədlərdə hansısa gərginliyə rəvac verə bilər. Eyni zamanda erməni revanşistlər, “5-ci kolon” hansısa təxribatlara əl ata bilərlər. Bütün bunlarla bağlı nələr demək olar? Burada kənar təsirlər ola bilərmi? Faktiki olaraq şərti sərhədlərdə Avropa İttifaqının mülki missiyası - əslində isə kəşfiyyat dəstələri - var. Onlar hansısa gərginliyi müşahidə etsəydilər, hay-küy qoparardılar. Azərbaycanın isə sülhə sadiqliyi Ermənistana da bəllidir. Rusiyanın Ermənistanlakı seçkiqabağı planları da şərti sərhədlərdə hansısa gərginliyə rəvac verə bilər. Eyni zamanda erməni revanşistlər, “5-ci kolon” hansısa təxribatlara əl ata bilərlər.

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi Tural İsmayılov bildirdi ki, sərhədyanı erməni kəndlərinin “sürətlə boşalması” barədə yayılan xəbərlər ilk baxışdan humanitar problem təsiri bağışlasa da, mahiyyət etibarilə bu, klassik siyasi manipulyasiya nümunəsidir:** “Burada nə real hərbi təhlükə var, nə də Azərbaycanın belə bir niyyəti. Var olan əsas məsələ - Ermənistanda sülh prosesinə qarşı aparılan planlı psixoloji əməliyyatdır. Əvvəla, Azərbaycan Ordusunun guya Ermənistan ərazisinə daxil olacağı qorxusu tamamilə uydurmadır. Rəsmi Bakı 44 günlük müharibədən sonra davranış modeli ilə açıq şəkildə göstərdi ki, hərbi gücdən yalnız beynəlxalq hüquq çərçivəsində və öz suveren ərazilərinin bərpası üçün istifadə edir. Bugünkü mərhələdə isə Azərbaycan regionda yeni müharibə yox, yeni nizam qurmaq istəyir. Prezident İlham Əliyevin bütün çıxışlarında sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması xətti ardıcıl şəkildə vurğulanır. Bu, taktiki manevr yox, strateji xətdir. Paşinyanın Kirants kəndində, Azərbaycan mövqelərinə yaxın ərazidə dayanaraq "eskalasiya olmayacaq" mesajı verməsi də təsadüfi deyil". **T.İsmayılovun sözlərinə görə, Ermənistan hakimiyyəti də anlayır ki, real təhlükə Bakıdan yox, daxili siyasi sabitsizlikdən və radikal revanşist dairələrdən qaynaqlanır:** “Ancaq problem ondadır ki, Paşinyan hökuməti bu dairələrlə açıq və qəti mübarizə aparmaq gücündə deyil. Nəticədə boşluq yaranır və bu boşluğu Narek Karapetyan kimi fiqurlar doldurur. Narek Karapetyanın çıxışı sıradan "narahat vətəndaş" mövqeyi deyil. Onun Taşir imperiyası, rus kapitalı və Moskva ilə əlaqələri kontekstində danışması bu ritorikanın haradan qidalandığını aydın göstərir. Məqsəd sadədir: sərhəd bölgələrində qorxu yaratmaq, əhalini köçə məcbur etmək, sonra isə bu boşalmaları “Azərbaycan təhlükəsi” kimi təqdim edərək sülh prosesini sabotaj etmək. Bu, köhnə ssenaridir, sadəcə, dekorasiyası dəyişib". **STM təmsilçisi qeyd etdi ki, əgər doğrudan da real təhlükə olsaydı, şərti sərhədlərdə dolaşan Avropa İttifaqının mülki missiyası artıq həyəcan təbili çalardı. Onlar xırda insidentləri belə şişirtməyi bacaran strukturlardır:** “Amma susurlar. Çünki müşahidə etdikləri reallıqla erməni müxalifətinin danışdığı nağıl üst-üstə düşmür. Bu da bir daha göstərir ki, söhbət təhlükəsizlikdən yox, daxili və xarici siyasi oyunlardan gedir". Siyasi şərhçinin fikrincə, Rusiya faktoru ayrıca diqqət tələb edir: “Ermənistanın seçkiqabağı dövrə yaxınlaşması Moskvanın aktivləşməsi üçün münbit zəmin yaradır. Kreml regionda sülhün tam bərqərar olmasında maraqlı deyil, çünki sülh Rusiyanın "vasitəçi", "təhlükəsizlik təminatçısı" rolunu sıfırlayır. Sərhəddə gərginlik şayiələri, kəndlərin boşaldılması görüntüsü, revanşist isterika - bunların hamısı Rusiyanın təsir rıçaqlarını qorumağa xidmət edir. Ermənistandakı “5-ci kolon” da məhz bu xətt üzrə işləyir. Revanşistlər yaxşı anlayır ki, sülh müqaviləsi imzalanarsa, onların illərlə qurduğu mifologiya, qorxu üzərində dayanan siyasi kapitalı darmadağın olacaq. Ona görə də son ümidləri insanları qorxutmaq, sərhəd kəndlərini psixoloji cəbhəyə çevirməkdir. Amma bu da uzunömürlü strategiya deyil. Nəticə etibarilə, sərhədyanı kəndlərin boşalması real təhlükənin yox, süni qorxunun məhsuludur. Azərbaycan bu prosesdə sakit, rasional və məsuliyyətli davranışı ilə regional liderliyini bir daha nümayiş etdirir. Bakı emosiyaya yox, hesablanmış siyasətə üstünlük verir. Ermənistan isə nə qədər tez revanşist xəyallardan imtina edib bu reallığı qəbul etsə, region üçün bir o qədər yaxşı olacaq. Tarix göstərir: qorxu üzərində qurulan siyasət gec-tez öz müəlliflərini yarı yolda qoyur".

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

## Dövlət Dumasında nə baş verir?




**Rusiya Dövlət Dumasının üç deputatı parlament tədbirlərində yerlərin satılması ilə bağlı şübhə altına düşüb.**

Musavat.com xəbər verir ki, bu işdə Rusiya Liberal Demokrat Partiyasından Andrey Svintsov və Kaplan Paneş, həmçinin “Yeni insanlar” partiyasından Roza Çemerisin adı hallanır.

Dövlət Dumasının spikeri Vyaçeslav Volodin fakt üzrə xidməti araşdırmanın aparıldığını bildirib. Onun sözlərinə görə, yerlərin satışı deputatların köməkçiləri tərəfindən həyata keçirilib və hüquq-mühafizə orqanları həmin şəxslərlə bağlı yoxlamalara başlayıb.

Volodin əlavə edib ki, fraksiyalar müvafiq tədbirlər görməzsə, prosesdə adı keçən deputatların mandatdan məhrum edilməsi də istisna olunmur. Adları çəkilən deputatlar isə parlament tədbirlərində yerlərin satılması ilə əlaqələrinin olmadığını bildiriblər.

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# Azərbaycanlı prezident Azərbaycana görə hədəfə alındı

## İranla Azərbaycanı düşmən etməyə çalışan mühafizəkarlar İranın da düşmənidirlər

**İranın ali dini lideri ayətullah Əli Xamneyinin nəzarətində olan "Keyhan" qəzeti Azərbaycan əleyhinə daha bir yazı dərc edib. Tribuna.az xəbər verir ki, sistemli şəkil alan bu qərəzli yanaşmaya hər dəfə yeni yazılar əlavə olunur.**

Qəzet iddia edib ki, guya Azərbaycan son illərdə İranın maraqlarına zidd addımlar atıb. "O cümlədən etnik məsələləri qabartmaq, sərhəddə gərginlik yaratmaq və İsraillə əməkdaşlığı genişləndirmək yolu tutub. Bakıya münasibət daha sərt, hesablanmış və açıq mesajlar üzərində qurulmalıdır".

Nəşr İranın prezidenti Məsud Pezeşkianı Azərbaycana səfər etməkdə ittiham edib. "Cənab Pezeşkian, siz niyə tez-tez Azərbaycana səfər edirsiniz? Niyə onlara bu şansı verirsiniz?" - deyə qəzet ölkə prezidentini hədəf alıb.

Son aylar Azərbaycan-İran münasibətlərində gərginliyə səbəb olan hallar yoxdur. Amma vaxtaşırı SEPAH və dini liderin himayəsində olan mətbuat orqanları Azərbaycana böhtan yağdırır. Xüsusən də İsraillə bağlı eyni ittihamlar təkrarlanır. Bu dəfə daha da irəli gedərək Pezeşkianın niyə Azərbaycana səfər etdiyi sorğu-sual edilir. Halbuki bu məsələdə qeyri-adi heç nə yoxdur və bütün ölkələrdə prezidentlər qonşu dövlətlərə müntəzəm səfərlər edirlər. Həmçinin xarici işlər naziri Abbas Əraqçi da Bakıya səfər etmişdi. Amma İranın mühafizəkar qanadına bağlı media ölkəmizə qarşı qeyri-dost yanaşmasını davam etdirir, ən adi şeylərə görə "qaşınmayan yerdən qan çıxarmağa" çalışır.

Bu qüvvələr niyə Bakı-Tehran əlaqələrinin rəvan olmasına qarşıdır? Pezeşkian onlara qarşı hansı addımları ata bilər?

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** "Yeni Müsavat"a bildirdi ki, İranın mühafizəkar dairələrinə bağlı olan media orqanlarının Azərbaycana qarşı qərəzli, böhtan xarakterli yazılar yayması ilk dəfə deyil: "Bu cür yazılar və çağırışlar az qala hər gün olur. SEPAH təmsilçilərinin, İranın ali dini liderinin müşaviri Əli Əkbər Vilayətinin də Azərbaycana qarşı açıqlamalarının tez-tez şahidi oluruq. Təəssüflə qeyd etmək lazımdır ki, son günlər həmin cinahdan Azərbaycana qarşı növbəti bir dalğanın gəldiyi müşahidə olunur. Gah "Tramp yolu"na qarşı bəyanatlar səsləndirirlər, gah Azərbaycan-İsrail münasibətlərini tamamilə qərəzli formada şərh edib uydurma fikirlər irəli sürülər. Artıq o qədər absurda gedirlər ki, öz ölkələrinin prezidenti Məsud Pezeşkianı Azərbaycan Respublikasına səfər etdiyi üçün ittiham edirlər, Pezeşkianı Azərbaycana qarşı addımlar atmağa çağırırlar. İrandakı bu cür qaragüruh dairələri anlamaq sağlam məntiqlə qeyri-mümkündür. İranın dövlət marağı əslində onu tələb edir ki, qonşu Azərbaycanla münasibətlər inkişaf eləsin. Lakin İranın mühafizəkar dairələri, qaragüruhun



nəzarətində olan media orqanları İran dövləti ilə Azərbaycanın münasibətlərinin tamamilə pozulmasına çalışırlar, bütün hərəkətləri ilə əslində daha çox İranın maraqlarına zidd olan mövqedə israr edirlər. İran prezidenti ölkəsinin maraqlarını çox düzgün qiymətləndirərək bu maraqların Azərbaycanla yaxın münasibətlərin qurulmasını tələb etdiyini düşünüb münasibətləri yaxşılaşdırmağa ilk vaxtdan çalışır. Səfərləri də bu siyasətə xidmət edir. Ancaq SEPAH və ona bağlı olan qüvvələr bu siyasəti yürütdüyü üçün Pezeşkiana da düşmən kəsiliblər. Həmin qaragüruh qüvvələr İranı tamamilə qapalı, dünyadan, qonşu ölkələrdən təcrid olmuş ölkə kimi görmək istəyirlər. Pezeşkian isə bunun əksini istəyir. O istəyir ki, İran dünyaya açılan, qonşuları ilə, xüsusən Azərbaycan və Türkiyə ilə bütün istiqamətlərdə ciddi əməkdaşlıq quran bir ölkəyə çevrilsin. Azərbaycan da İranla iqtisadi-ticari əlaqələrin genişləndirilməsində maraqlı olduğunu nümayiş etdirir. İranda çoxlu sayda azərbaycanlılar yaşayır. Bu amil də Azərbaycan-İran əlaqələrinin inkişafını zəruri edir. SEPAH kimi qüvvələr həm də buna görə əlaqələrin qurulmasını deyil, pozulmasına çalışır".

**Deputat qeyd etdi ki, prezident Pezeşkian pozuculuq yolunu seçən və onun müsbət addımlarına qarşı çıxan qüvvələrlə bağlı sərt addımlar atmır:** "Nəzərə almaq lazımdır ki, faktiki əsas hakimiyyət ali dini liderdədir. Onun razılığı olmadan prezidentin sözügedən qüvvələrə qarşı hansısa cəza tədbirləri həyata keçirməsi sadə bir iş deyil. Prezidentin həmin qüvvələri tamamilə susdurmaq imkanları azdır. Ona görə də yaxın zamanlarda prezidentin o qüvvələrlə bağlı ciddi addımlar atacağını gözləmək düzgün olmazdı. Cənab Pezeşkian Azərbaycanla əlaqələrin yaxşı olması istiqamətində yürütdüyü siyasəti davam etdirməklə mövqeyindən geri çəkilmədiyini göstərir. Bunun özü ciddi məsələdir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Kreml həbsdəki adamı üçün çırmandı - Bakıdan reaksiya

## Rusiya Samvel Karapetyanın ümidinə qalıb; Moskva "namizədi"ni azad etdirə biləcəkmi?

**"Rusiya Ermənistanla rəsmi təmaslarda iş adamı Samvel Karapetyanın həbsi məsələsini qaldırır. Səfirlik onunla görüşmək imkanı əldə edib".**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə 4-cü departamentinin direktoru Mixail Kaluqin bildirib. Onun sözlərinə görə, Rusiyanın İrəvandakı səfirliyi onunla görüş keçirmək barədə razılığa gəlib.

Qeyd edək ki, Rusiya vətəndaşı, "Tashir Group" şirkətinin sahibi Samvel Karapetyan Erməni Apostol Kilsəsini (AACC) dəstəklədiyini elan etməsindən sonra həbs edilib.

Karapetyanın həbsindən sonra tərəfdarları hərəkat yaradıb və onun gələn ilin yayında Ermənistanda keçiriləcək parlament seçkilərində iştirak edəcəyi bildirilib.

Seçkiyə qədər Moskva Karapetyanı həbsdən buraxdıra bilərmi? Onun və tərəfdarlarının seçkidə qələbə şansı varmı? Azərbaycana Rusiyanın adamının Ermənistanda hakimiyyətə gəlməsi sərf edirmi və bu halda sülh prosesində nələr dəyişə bilər?

**Siyasi şərhçi Azər Hüseynov** "Yeni Müsavat"a bildirib ki, Samvel Karapetyanın böyük maliyyə resurslarına malik olması, Rusiya iqtisadi-siyasi mühitinə inteqrasiya



olunması və diaspor strukturları ilə əlaqələri Moskva üçün onu potensial alətə çevirir. Lakin bu, Karapetyanın müstəqil siyasi fiqur olmasından çox, Rusiyanın Ermənistan daxilində alternativ təzyiq rıçaqları yaratmaq cəhdinin göstəricisidir".

**Politoloqun fikrincə, son illərdə Ermənistanda Qərbə inteqrasiya tərəfdarlarının artması, Rusiya asılılığının müzakirə mövzusuna çevrilməsi və təhlükəsizlik anlayışının yenidən sorğulanması Moskvanın manevr imkanlarını daraldır:** "Bu, Rusiyanın Ermənistanda istədiyi nəticəni avtomatik əldə edəcəyi anlamına gəlmir. Əksinə, Rusiya üçün risklər artıb və onun hər addımı daha çox müqavimətlə qarşılaşır".

**A.Hüseynov qeyd edir ki, əsas məsələ Rusiyanın kimisə hakimiyyətə gətirib-gətirməməsi deyil, bu cəhdlərin regional proseslərə necə təsir edəcəyidir:** "Bakının marağı revanşist ritorikanın yenidən güclənməməsi, Ermənistanın daxili siyasi mübarizəsinin regiona ixrac olunmaması və sülh prosesinin alətə çevrilməməsidir. Rusiyanın təsiri altında formalaşan istənilən siyasi konfiqurasiyanın avtomatik olaraq sabitlik gətirəcəyi fikri əsassızdır və son illərin təcrübəsi bunu dəfələrlə təkzib edib.

Əksinə, Rusiyanın Ermənistan üzərində təsir uğrunda apardığı mübarizə daxili siyasi qütbləşməni dərinləşdirə, seçkiləri geosiyasi qarşıdurma meydanına çevirə bilər. Bu isə nə Ermənistanın, nə də regionun uzunmüddətli maraqlarına xidmət edir. Ermənistan daxilində Rusiyanın təsir imkanları nə qədər geniş olsa da, bu, artıq əvvəlki kimi həlledici və mütləq xarakter daşımır".

**Siyasi şərhçi Əli Zülfüqaroğlunun fikrincə, Rusiya vətəndaşı olan Karapetyanın hansı missiyanı həyata keçirməyə çalışması aydın məsələdir:** "Hazırda Paşinyana qarşı olan qüvvələrin önündə gedən kilsə və revanşistlər Rusiya tərəfindən dəstəklənir. Onların dəstəyi ilə Karapetyan siyasi fiqur olaraq önə çıxmağa çalışırdı.

Rusiya kilsə vasitəsilə Paşinyana qarşı effektiv təzyiq edə bilmir. Çünki Paşinyanın açıqlamalarından bəlli olur ki, xüsusilə II Qareginə qarşı hökumətin əlində kifayət qədər ifşaedici məlumatlar var. Kilsə gözlənilən ictimai dəstəyi əldə edə bilmədi. Kilsə ilə bərabər hərəkət edən revanşistlərin seçkiyə qədər ictimai dəstək qazanması və Paşinyana qarşı qüvvə kimi meydana çıxması real görünmür. Bunu hesablayan Rusiya Karapetyanın azadlığa buraxılması üçün Paşinyana təzyiq göstərməyə çalışır. Həbsdən çıxandan sonra onun "əzabkeş" və "xilaskar lider" obrazı yaradılacaq. Təbii ki, Paşinyan bunu bilir, ona görə də Karapetyanın ən azı seçkiyə qədər azadlığa çıxacağı inandırıcı deyil".

**Əli Zülfüqaroğlu əlavə edib ki, Azərbaycan ərazilərinin işğalı, müharibə cinayətləri və çoxsaylı insan itkisi ilə nəticələnən, Ermənistanı isə fəlakətə sürükləyən ideoloji düşüncənin yenidən Ermənistan hakimiyyətində olması arzuolunmazdır:** "Çünki bu ilk növbədə sülh perspektivini təhlükəyə atacaq. Nəticədə yenidən bölgədə qeyri-sabit vəziyyət yarana bilər. Amma bu o demək deyil ki, Ermənistanda hansısa qüvvələrin hakimiyyətə gəlməsi bundan sonra yenidən Ermənistana işğalçılıq niyyətlərini reallaşdırma potensialı verəcək. Çünki Azərbaycan təkcə Ermənistan hakimiyyətini deyil, ümumilikdə ikinci "erməni dövləti" sayılan erməni lobbisini, revanşistləri, kilsəni, bütövlükdə erməni dövlətçiliyi və onun havadarlarını məğlub edib. Bölgədə yeni geosiyasi reallıqlar var, Azərbaycanın diplomatik manevr imkanları olduqca genişdir. Azərbaycanın hərbi potensialı Ermənistanla müqayiseedilməz səviyyədədir. Bu da o deməkdir ki, növbəti illərdə də Ermənistan hansısa hakimiyyətlər dönəmində də bu niyyətə düşərsə, fayda əldə edə bilməyəcək. Real mənzərə bundan ibarətdir.

Təbii ki, Azərbaycan müharibə deyil, sülh tərəfdarıdır. Paşinyanın "real Ermənistan" siyasəti ilk növbədə Ermənistanın mövcudluğunun qarantı olmaqla yanaşı, bölgədə sabitlik deməkdir. Ona görə də Ermənistanda yenidən revanşistlərin hakimiyyətə gəlməsi Azərbaycana da sərf etmir. Bu baş verərsə, ilk növbədə sülh prosesinə ciddi zərbə dəyəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# Moskvadan Bakıya "Rus evi" israrı - dekabrın 25-dək...

## Rusiya bu məsələdə niyə direşir?

**Moskva-Bakı münasibətlərində təzədən xoşagəlməz tendensiyalar müşahidə olunmaqdadır. Belə görünür ki, Rusiyadakı bəzi dairələr növbəti dəfə Azərbaycandan və azərbaycanlılardan "əcinnə" düzəltməkdə maraqlıdır.**

Bu arada Rusiya Xarici İşlər Nazirliyinin (XİN) MDB ölkələri üzrə 4-cü departamentinin direktoru Mixail Kaluqin Bakıda ilin əvvəlində qapadılmış "Rus evi" ilə bağlı mesaj xarakterli açıqlama verib. Diplomat bildirib ki, Moskva "Rus evi"nin tezliklə fəaliyyətə başlayacağını ümidlə gözləyir.

**Sitat:** "Biz Rusiya və Azərbaycan Xarici İşlər nazirlikləri arasında münasibətlərimizin bütün gündəliyi, o cümlədən humanitar komponent üzrə əlaqələri davam etdirəcəyik. Biz eyni zamanda ölkələrimizin dost xalqları arasında əlaqələrin möhkəmləndirilməsinə əhəmiyyətli töhfə vermiş Bakıdakı "Rus evi"nin tezliklə fəaliyyətə başlaması üçün qarşılıqlı məqbul həll yolları tapmağa sadiqik".

Əgər adıçəkilən "mədəniyyət obyekti" uzun illər Azərbaycan dövləti əleyhinə casus yuvasına çevrildiyi üçün qapadılıbsa, hansı "əhəmiyyətli töhfə"dən söhbət gedir?

Kaluqinin "Rus evi" israrı Rusiyada soydaşlarımıza qarşı artan təzyiq kampaniyası fonunda xüsusi diqqət çəkir. İstisna deyil ki, xarici işlər nazirinin müavini Mixail Qaluzinin ötən həftə Bakıya qəfil və müəmmalı səfərinin hədəflərdən biri də bu olub.

Bəs Moskva niyə "Rus evi"nin açılmasında bunca israrlıdır?

Onu da qeyd edək ki, bir həftə sonra - dekabrın 25-də AZAL-a məxsus mülki təyyarənin Qroznı üzərində vurulmasının bir ili tamamlanacaq. Yada salaq ki, Azərbaycan tərəfi hələ Putinin Düşənbədə Prezident İlham Əliyevə verdiyi məlum vədlərə qədər faciə ilə bağlı beynəlxalq məhkəməyə müraciət edə biləcəyini bəyan etmişdi. Bəlkə rəsmi Moskva Bakı ilə hansısa siyasi bazarlığa ümid edir - "Rus evi" də daxil olmaqla...

Azərbaycan dövləti isə özünə hörmət edən müstəqil dövlətdir və bu cür məsələlərdə Rusiya Bakıdan "bazarlığa getmək" gözləyirsə, yanılır.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, Moskvanın Bakıdakı "Rus evi"nin açılmasında israr etməsini bir neçə əsas siyasi, mədəni və strateji səbəblə izah etmək olar:** "Rusiya Bakıdakı "Rus evi" məsələsində israr etməklə Cənubi Qafqazda təsirini qorumaq, yumşaq güc imkanlarını bərpa etmək istəyir. "Rus evi" Rusiyanın, ümumiyyətlə, xaricdə həyata keçirdiyi yumşaq güc siyasətinin əsas mexanizmlərindən biridir. Məlumdur ki, Rusiya tərəfi rəsmiyyətdə bu mərkəzlər vasitəsilə müxtəlif ölkələrdə rus dili və mədəniyyətinin təbliğ olunduğunu, təhsil proqramları və təqaüdlər təqdim edildiyini, gənclər və ziyalılarla əlaqələr qurulduğunu bəyan edir. Əslində bu, Rusiyanın regionda ictimai rəyə təsir imkanlarını qorumaq cəhdidir. Rusiya "rus evləri" vasitəsilə postsovet məkanında təsir dairəsini saxlamağa çalışır. Azərbaycan müstəqil xarici siyasət yürütməsinə baxmayaraq, Rusiya onu hələ də özünün hegemon olduğu postsovet məkanının mühüm ölkələrindən biri hesab edir və müstəqil siyasət yürüdən postsovet respublikalarını sevmir".




**Politoloq onu da deyib ki, Bakıda Türkiyə, Britaniya, Almaniya, Fransa və digər mədəniyyət mərkəzləri fəaliyyət göstərir:** "Rusiya bu fonda öz mədəni-siyasi təsirinin gerilədiyi görüntüsünün yaranmasını istəmir və balans yaratmağa çalışır. İsrarın səbəblərindən biri də budur.

Moskva rəsmi olaraq iddia edir ki, Azərbaycanda rusdilli əhali var, rus dilində təhsil və mədəni fəaliyyətə tələbat mövcuddur. Bu arqument əslində daha çox siyasi məqsədləri ört-basdır edən humanitar əsaslandırma kimi çıxış edir. Ukrayna müharibəsindən sonra Rusiya Qərbin regiondakı təsirini təhlükə kimi görür. Ona görə də ən müxtəlif vasitələrlə regionda yerini möhkəmlətməyə çalışır. Bu vasitələrdən biri kimi "Rus evi"ni görürlər. Rusiyada bəzi dairələr üçün bu mövzu artıq təkcə bir mərkəzin açılması deyil, "harada geri çəkildik, harada mövqeyimizi qoruyuruq" məsələsidir və Bakı ilə münasibətlərdə status və nüfuz testi kimi qəbul olunur. Həmin dairələrin təkidi həm də bununla bağlıdır".

Qeyd edək ki, Bakıdakı "Rus evi" ("Rossotrudniçestvo"nun nümayəndəliyi) 2025-ci ilin fevralında rəsmi olaraq bağlanıb. Azərbaycan Xarici İşlər Nazirliyi 3 fevral 2025-də Rusiyaya rəsmi məktubla "Rus evi"nin fəaliyyətinin dayandırılması barədə bildiriş göndərib və bağlanma qərarı 6 fevral 2025-də ictimaiyyətə açıqlanıb. "Rus evi" özü də fevralın 11-də xidmətlərini rəsmi olaraq dayandırmaq üçün tədbirlər gördüyünü bəyan edib və binanın üzərində yazılar sökülüb.

Rəsmi Bakı "Rus evi"nin bağlanmasına bir neçə əsas səbəb göstərib. Azərbaycan XİN bildirib ki, "Rus evi" yerli qanunvericiliyə uyğun hüquqi şəxs kimi qeydiyyatdan keçməyib və ona görə ölkə qanunlarını ciddi şəkildə pozub. Belə təşkilatların fəaliyyəti ölkənin qanunlarına uyğun olmalıdır, qarşılıqlı prinsiplər əsasında tənzimlənməli və ikitərəfli razılaşmalar çərçivəsində olmalıdır.

Bu addım Moskva ilə münasibətlərin gərginləşdiyi dövrdə Azərbaycan bəzi xarici təsirlərə və təhlükəsizlik narahatlıqlarına (məsələn, iddia olunan casusluq fəaliyyətləri barədə mediada çıxışlar) diqqət yetirərkən atılıb.

"Rus evi"nin bağlanması rəsmi olaraq qanuni və inzibati səbəblərə əsaslansa da, bu addım eyni zamanda Bakı ilə Moskva arasında diplomatik münasibətlərin gərginləşdiyi bir dövrdə atılıb.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Xristian təşkilatından anti-Azərbaycan demarşı - bir bu qalmışdı...

## Qondarma rejimin "ölməsi" ilə barışmayan qüvvələr mövcuddur; sabiq nazir hesab edir ki, Paşinyan tarixi qərara imza atmalıdır

**Özünü insan haqları təşkilatı sayan Beynəlxalq Xristian Həmrəyliyi adlı qurum İrəvanda "artsax" nümayəndəliyində aparılan axtarışlarla bağlı bəyanat yayıb.**

"Artsax parlamenti insanların öz vətənlərinə qayıtmaq kimi beynəlxalq səviyyədə tanınmış hüququnu müzakirə etmək üçün çağırdığı iclasdan sonra 11 dekabrda İrəvanda "artsax respublikası"nın daimi nümayəndəliyinə polis basqını ilə bağlı dərin narahatlıq keçirir, Ermənistan hakimiyyətini dinc toplaşmaq hüququnu qorumağa və "artsax" xalqının institutlarına siyasi təzyiq göstərmək üçün hüquq-mühafizə orqanlarından istifadə etməkdən çəkinməyə çağırır", - sayıqlamalarla dolu bəyanatda deyilir.



Göründüyü kimi, Beynəlxalq Xristian Həmrəyliyi təşkilatı Qarabağdan könüllü köçüb getmiş ermənilərin məsələsini bitməyə qoymur və hər şeyi yenidən alovlandırır.

Qeyd edək ki, bundan əvvəl keçmiş "artsax müdafiə ordusu"nun komandiri, hərbi cani Samvel Babayan Ermənistan hakimiyyətini tənqid edən açıqlamasında Qarabağ məsələsinin guya "bağlanmadığını" iddia edib. O, erməni cəmiyyətini yeni qarşıdurma psixologiyasına sürükləməyə çalışan fikirlər səsləndirib. Azərbaycanın ərazi bütövlüyü və regionda formalaşmış yeni siyasi reallıqları faktiki olaraq inkar edib, Qarabağdan köç etmiş ermənilərin geri qayıdışı mövzusunu təzədən siyasi manipulyasiya alətinə çevirib.

Bundan əlavə, Avropa Birliyi ilə Ermənistan arasında imzalanan "Tərəfdaşlıq gündəliyi" adlanan sənəddə Azərbaycan erməniləri Qarabağdan "didərgin" salmaqda ittiham edilir. İndi də Beynəlxalq Xristian Həmrəyliyi təşkilatı çağırış edir. Niyə? Bunların dərdi, məqsədi nədir?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov "Yeni Müsavat"a açıqlamasında qondarma rejimin ölməsi ilə bu təşkilatın hələ də barışmadığını qeyd etdi:** "Bunların dərdi regionda qarşıdurma yaratmaq, suyu bulandırmaqdır. Axı bulanıq suda balıq tutmaq çox asan olur. Su durulduqda balıq yaranan təhlükəni görür və bu səbəbdən onu tutmaq mümkün olmur. Bax, budur bunların canfəşanlığının fəlsəfəsi. İndi Cənubi Qafqazda Ermənistan və Azərbaycanın birgə səyləri ilə sülh yetişir, yəni regionda sular durulur. Bu yaramazlar isə duru suda balıq tuta bilmirlər, odur ki, hər vəchlə yenidən suyu bulandırmağa çalışırlar. Bunların "artsax" deyib hürməkdə ali məqsədləri Ermənistanda qarşıdurma yaratmaq, bu ölkənin gerçək müstəqilliyi uğrunda çalışan Nikol Paşinyanı hakimiyyətdən devirməkdir. Anlamaq istəmirlər ki, "artsax" ölüb, onun qırxı da, ili də çoxdan çıxıb və bu səbəbdən həmin ölünü diriltmək qədər sərsəm olmağa dəyməz. Ancaq bunlar sərsəmləməkdə davam edirlər.

Hesab edirəm ki, Ermənistan baş naziri Nikol Paşinyan yeni tarixi bir qərara imza atmalıdır. O, ölkəsində "artsax" deyib Ermənistanın sülh toplumunun əsəbləri ilə oynayan Köçəryan, Sərkisyan, Babayan kimi caniləri bir gecədə yığıb Azərbaycana təhvil verməlidir. Bununla Paşinyan artsax deyib şüvən salanların tabutuna son mismarı vurmuş olar. Əgər Paşinyan bu addımı atarsa, ölkəsini gələcək təhlükələrdən xilas etmiş olar və həm də Azərbaycanla yaratmaq istədiyi sülhə nə qədər sədaqətli olduğunu sübut edər. Bu isə Azərbaycan və Türkiyə ilə münasibətlərin sabahı üçün olduqca önəmlidir".

**Siyasi təhlilçi Sona Əliyeva sifarişin erməni lobbisindən gəldiyini düşünür:** "Beynəlxalq Xristian Həmrəyliyi təşkilatı kimi qurumlar hər zaman böyük dövlətlər üçün "maşa" rolunu oynayıb. Həmin dövlətlərin "ianələri" ilə "ayaqda durmağa" çalışıb. Əslində heç bir beynəlxalq çəkiyə malik deyil. Digər tərəfdən, Fransadakı və ABŞ-dakı erməni lobbisinin maliyyə dəstəyinə möhtac bir "qurum"dur. Görünür, sifariş yenə də erməni lobbisindən gəlib. Hətta bəzi qaynaqlarda rus kəşfiyyatının da bu qurumla sıx əlaqədə olduğu iddia edilir. Bir sözlə, gerçəklik başqadır. Qarabağdan ermənilər könüllü gediblər. Üstəlik, Beynəlxalq Xristian Həmrəyliyi təşkilatı kimi qurumları heç Ermənistanda da ciddi qəbul etmirlər. Vaxtilə radikal milliyyətçilərin "ilham mənbəyi" olan bu cür qurumlar indi "separatçı qalıqların ümidinə" qalıb. Qarabağ və oraya ermənilərin qayıdışı ilə bağlı dəftər çoxdan qapanıb və tarixin tozlu zibilliyinə gömülüb. Beynəlxalq Xristian Həmrəyliyi təşkilatının "bəyanatları" isə heç nəyi dəyişməyəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Bir arvadlı təhsil eksperti

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud şabalıd alveri üçün xüsusi təyinatlı avadanlıqlar

**16 dekabrda fövqəladə hallar idarəmizin yaranmasının 20 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Mən bu istiqamətdə keçirilən tədbirlərdən reportajları maraqla izlədim. Məsələn, fövqəladə hallarda istifadə edilən xüsusi təyinatlı texnika və avadanlıqların sərgisi nümayiş etdirildi. Burada hündür binalarda yanğın söndürmə qurğuları, həmçinin ağacın başındakı şabalıdı salmaq üçün elektronik selbələr göstərildi. Güman edirik ki, dələduzların qurbanı olmuş və 3 milyon dollarını qapdırmış eks-general Rail müəllim həyat və yaradıcılığı zamanı məhz bu qurğulardan yararlanırmış.**

Həmçinin fövqəladə hallar generallarımız xurma alveri və qoyunçuluqla da məşğul idilər. Xüsusi texnikalar sırasında yetişməmiş xurmanı yeyib boğulan, "öldüm-öldüm"ə düşən vətəndaşın həyata qaytarılması üçün oksigen balışları, qoyunu Gürcüstandan gətirmək üçün avtofurqon, sürünü canavardan qorumaq məqsədli it səsi çıxaran, süni intellekt əsaslı robotlar və sairəyə də sıra baxışı keçirildi.

Tədbirlər yubiley xarakteri daşıdığı üçün xaricdən qonaqlar da çağırılmışdı. Bu sırada Qırğız Respublikasının fövqəladə hallar naziri general-leytenant Boobek Ajikeyev, Özbəkistanın fövqəladə hallar nazirinin birinci müavini Sanjar Zuparov, Rusiya fövqəladə hallar nazirinin müavini Roman Kurının kimi hörmətli yoldaşlarla yanaşı Avropada şabalıd bazarına nəzarət edən iş adamları xüsusi diqqətimizi çəkmişdir.

Ona görə də atalarımız "şabalıdı ver generala, xurmanı da üstəlik" demişlər. Hər kəs öz sahəsində uğur qazanır. Bunun üçün ali təhsil sektorumuz da müvafiq kadrlar yetişdirir. Hər il nə qədər gənc çalışır universitetə girsin (sanki bitirəndə iş tapacaqlar, yel əsib qoz tökülüb - ancaq indi bu cür temaların vaxtı deyil). Elə Dövlət İmtahan Mərkəzinin salonlarına xüsusi qurğular keçirərkən ifşa olunan təhsil ekspertləri və abituriyentlərdən ibarət şanlı dəstənin əhvalatı bu baxımdan diqqətə layiqdir.

Əlaqədar orqanların informasiyasını oxuyanda sanki casus filmlərinin qısa xülasəsini izləyirik, bircə Ceyms Bond çatışmır: qulağa yerləşdirilən gizli mikrofon, düyməformalı video çəkən, ayaqqabının altında telefon, nə bilim, ancaq zəng gələndə ekranı açılan kart tipli qurğu... İstər-istəməz düşünürsən ki, bu gənclər türməyə salınsa dövlətçiliyimizə faydası olmayacaqdır. Yaxşısı onları kəşfiyyat qurumlarına cəlb etmək, düşmən ölkələrə casusluğa göndərməkdir. İstedad niyə batsın? Dünən təhsildən ekspert idi, sabah kəşfiyyatçı işləsin. Paraşütlə Zəngəzur dəhlizinə atmaq lazımdır.

Bir məsəl də yadıma düşdü, deyir, başın yaxşı başdı, heyf qarpıza işlədirsən. Bax, bizim universitetlərə girmək üçün insanların bu qədər əzab-əziyyətə düçar olmağı, hətta kriminal üsullara əl atmağı məni həmişə təəccübləndirib. Xüsusilə də Narxozun hansı zibil qabının dibində çürüdüyü yadıma düşməyən diplomunun daşıyıcısı olaraq mənə bu əməllər qəribə gəlir. Azərbaycanda 4-5 il ali təhsil almaqdansa, hansısa santexnikin şagirdliyini edib peşə öyrənmək 4-5 dəfə sərfəli addımdır. Məsələn, elə yuxarıda söz açdığım generallar da guya hansısa ali təhsil almışdılar. Axırı nə oldu? Orta məktəbi yarımçıq bitirən dələduzların qurbanına çevrildilər.

Ortada o qədər "natamam-orta" ortababdan yuxarı səviyyədə yaşayır, di gəl, ali təhsillilərimiz acından günorta dururlar (bu cümləni DİM imtahanlarına yanıltmac sualı kimi hazırladım). Məsələn, bir yoldaş var, adını çəkməyimə ehtiyac yoxdur, maşallah, istənilən akademikdən məşhurdur, 4 illik rus-tatar məktəbini 1-ci sinifdən tərk edərək qoyun otarıb, sonra həmin qoyunların hesabına evtikmə kombinatı qayırıb, indi pula dollar demir. Hələ azı 2 dənə övrət də alıbmış, bunu jurnalistə elə həvəslə bəyan edirdi ki, pis çıxmasın, "istəsən səni də alaram" mənzərəsi yaranmışdı.

İnşallah, yaxın gələcəkdə universitetləri də orta məktəblərimiz kimi bağlayıb repetitor-rektorla birlikdə hamımız şabalıd qozası yığmağa gedərik.

# Tehrandan Zəngəzur dəhlizinə hədə - Əraqçi gedən kimi...

## İranda mühafizəkar qanadla hökumətin "Tramp yolu"na baxışı üst-üstə düşmür - Bakı və İrəvandan sərt cavablar

**İran ilk dəfə olaraq TRİPP layihəsini ("Tramp marşrutu") "milli təhlükəsizliyinə təhdid" hesab edərək, açıq şəkildə ona qarşı çıxıb. Bu barədə dini lider Ayətullah Əli Xamneyinin baş müşaviri Əli Əkbər Vilayəti Ermənistanın Tehrandakı səfiri Qriqor Akopyanla görüşü zamanı deyib.**




Onun sözlərinə görə, Trampın Qafqaz planının Zəngəzur dəhlizindən heç bir fərqi yoxdur və İran qəti şəkildə buna qarşıdır. "Dəhliz NATO-nun İranın şimalında mövcudluğu üçün şərait yaradır və İranın şimalı və Rusiyanın cənubu üçün (? - red.) ciddi təhlükəsizlik təhdididir. Bu plan praktik olaraq eyni layihədir, sadəcə, fərqli addadır və Amerika şirkətlərinin Ermənistana daxil olması yolu ilə həyata keçirilir".

Vilayətiyə görə, ABŞ iqtisadi fəaliyyət bəhanəsi ilə regiona hərbi müdaxilə etmək istəyir. "İranın sərhədlərində hər hansı formada Amerika mövcudluğu açıq-aşkar təhlükəsizlik təsiri yaradır", - Xamneyinin baş müşaviri əlavə edib.

Diqqətçəkicidir ki, İranın Təhlükəsizlik Şurasının katibi Əli Laricani də eyni mövqedən çıxış edərək, Zəngəzur dəhlizinin İran üçün "qırmızı xətt" olduğunu bildirib.

Qeyd edək ki, hər iki şəxs, xüsusən də Vilayəti Bakı ilə Tehran arasında münasibətlərin normallaşdırılmasının əleyhdarlarından hesab olunur. Vilayəti müntəzəm şəkildə İran rəhbərliyinin ən mühafizəkar xəttinin mövqeyini əks etdirən təxribatçı bəyanatlar verir. Halbuki Pezeşkian hökumətinin məsələ ilə bağlı açıqlamaları olduqca neytraldır.

Elə bu günlərdə İranın xarici işlər naziri Abbas Əraqçi Bakı səfərindən sonra müsbət mesajlar verib, Tehranın Bakı ilə münasibətləri inkişaf etdirməyə və gücləndirməyə, hətta strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağa hazır olduğunu bildirib. Gəl ki, Vilayətinin növbəti təxribatçı açıqlaması bu narrativi alt-üst edir.

"TRIPP layihəsi Zəngəzur dəhlizi deyil". Bu, Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyanın cavabıdır. Rubinyan vurğulayıb ki, TRIPP Ermənistanın tam suverenliyi, ərazi bütövlüyü və qanuniliyi çərçivəsində bərabərlik prinsiplərinə əsaslanaraq fəaliyyət göstərəcək biznes layihəsidir. O qeyd edib ki, Ermənistan tərəfi iranlı həmkarları ilə daim əlaqə saxlayır, onların bu məsələdəki həssaslıqlarını və maraqlarını nəzərə alır.

"İran Xarici İşlər Nazirliyi dəfələrlə bildirib ki, onun "qırmızı xətləri" nəzərə alınır və İran üçün imkanlar yaradılır. İnanıram ki, bu açıqlamalar qüvvədə qalır", - deyə Rubinyan əlavə edib.

Spiker müavini vurğulayıb ki, istənilən ölkənin rəsmi mövqeyi onun Xarici İşlər Nazirliyi vasitəsilə ifadə olunur və bu halda İran Xarici İşlər Nazirliyinin bəyanatları nəzərə alınır.

O, həmçinin qeyd edib ki, əksər hallarda Ermənistan və İranın maraqları üst-üstə düşür. "Həmçinin Ermənistanın "qırmızı xətti" Ermənistan Respublikasının ərazisindən tranzit dəhlizinin olmamasıdır", - deyə Rubinyan fikrini yekunlaşdırıb.

İrəvandan da cavab gəldiyi halda, bəs İranın qırğıları, konservatorlar nə istəyir, nəyə can atırlar? Bakının və İrəvanın bu mesaj və hədələrə cavabı nə olmalıdır?

**Siyasi ekspert Elxan Şahinoğlunun sözlərinə görə, Vilayəti "Tehran Zəngəzur dəhlizinə qarşıdır" desə də, İran Prezidenti Məsud Pezeşkian və xarici işlər naziri Abbas Əraqçi Zəngəzur dəhlizinin əleyhinə deyil**: "Buna baxmayaraq, Vilayətinin açıqlamasından bir daha anlaşılır ki, İranda müxtəlif məsələlərə olduğu kimi Zəngəzur dəhlizinə baxışda da hakim qüvvələrin iki fərqli mövqeyi var. Vilayətinin simasında isə mühafizəkarlar Məsud Pezeşkianla əks fikirdədirlər. Mühafizəkarların Zəngəzur dəhlizinin əleyhinə olmaları mövcud reallığı dəyişmir. Dəhlizin inşası davam edir və Ermənistanda fövqəladə hadisə baş verməsə "Tramp yolu" uzaqbaşı 2028-ci ilin sonlarına qədər işə düşəcək".

**Analitikin fikrincə, məsələnin maraqlı tərəfi başqadır:** "Ermənistan Xarici İşlər Nazirliyi İrandakı mühafizəkarların, o cümlədən Vilayətinin Zəngəzur dəhlizi əleyhinə olduğunu bildiyi halda, səfirini niyə onunla görüşə göndərib? Mümkündür ki, Vilayəti səfirlə görüşmək istəyib və erməni diplomat vasitəsilə baş nazir Nikol Paşinyana xəbərdarlıq mesajı göndərib. Vilayət eyni mesajı Azərbaycan səfiri vasitəsilə Bakıya göndərə bilməz. Çünki Azərbaycanın İrandakı səfiri Bakının təlimatı olmadan Vilayəti ilə görüşməz. Belə bir təlimata isə ehtiyac yoxdur".

**Professor Qabil Hüseynli** İranın beş ildir ki, dəhlizə qarşı hibrid müharibə apardığını müşahidə edir. Onun fikrincə, Azərbaycandan Azərbaycana keçid bütün hallarda təmin olunmalıdır. Professor hesab edir ki, Tehran yaxasını nə qədər istəyir cırsın, Azərbaycanın Naxçıvana quru yol təminatı onun suveren haqqıdır. O ki qaldı ABŞ-nin Zəngəzur dəhlizinə "Tramp marşrutu" adı ilə yerləşməsinə, politoloq bu məsələnin Azərbaycanı az maraqlandırdığı düşünür: "Çünki razılaşma Birləşmiş Ştatlarla Ermənistan arasında olub. Dəhlizdə 99 il Amerika şirkətinin olmasına da Ermənistan rəhbərliyi razılıq verib. Bu, İrəvanın daxili işidir. Qoy İran qardaşı hesab etdiyi Ermənistandan izahat tələb etsin ki, onun şimal sərhədlərinə nə üçün düşmən saydığı ölkənin şirkətini yerləşdirir. Qoy Tehrandakı rejim Paşinyandan soruşsun ki, onun "qırmızı xətti"ni niyə tapdalayır... Yeni Azərbaycanı müntəzəm olaraq İranla sərhədə "sionist rejimi" yerləşdirməkdə ittiham edən cənub qonşumuz özünə qardaş bildiyi Ermənistana bir baxsın, bir bizə. Ona görə də Azərbaycandan daha çox Ermənistan Vilayəti, Laricani kimi rejimin əsas adamlarının çıxışlarına reaksiya verməlidir".

**Q. Hüseynli İranın Zəngəzur dəhlizi əleyhinə apardığı təbliğatın nəticə verməsini gözləmir:** "İran təxribatlara əl atmaq iqtidarında deyil. Vilayəti və Laricani ABŞ-nin iştirak etdiyi layihəyə təhdid yağdırarsa, cavabı olar. Tramp İrana daha ağır cəza verə bilər. 12 günlük müharibə Tehran rejimi üçün bir dərs oldu. O səbəbdən, İranın dəhlizə qarşı eskalasiya xarakterli hərəkətləri olarsa, çox ciddi bir münaqişə başlaya bilər. Təbii ki, İran və müttəfiqi Rusiya dəhlizə mane olmağa çalışacaq. Bu da Paşinyana təzyiqlə mümkündür. Əgər Qərbdən Paşinyana ciddi dəstək olarsa, hər iki tərəfin təzyiqlərinə tab gətirə bilər. Sadəcə, İran hökumət üzvləri dini rejimin nümayəndələrindən fərqli danışır, dəhlizin əhəmiyyətini vurğulayırlar. Görünür ki, bu məsələdə ikitirəlik var".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# ABŞ-dən Bakı və İrəvana şok xəbərdarlıq - "Rusiya və İran..."

## Şimal və cənub qonşularımız sülh yolunda əldə edilən böyük sıçrayışı bloklamağa hazırlaşır - məkrli planın gizlinləri



**Artıq tarixin arxivinə verilmiş Minsk Qrupunun keçmiş amerikalı həmsədri Keri Kavano "Azad Avropa/Azadlıq" radiosunun gürcü xidmətinə müsahibə verib. Vaxtilə Dağlıq Qarabağ ixtilafı ilə bağlı "ərazi mübadiləsi" planı üzrə danışıqlarda, həmçinin Azərbaycan və Ermənistan prezidentləri arasında Ki-Uestdəki müzakirələrdə iştirak etmiş diplomat müsahibədə Azərbaycan və Ermənistan arasında sülh prosesi, ABŞ-nin Cənubi Qafqazdakı rolu ilə bağlı da fikirlərini bölüşüb.**

Kavano hazırkı vəziyyəti "ümid əlaməti" adlandırıb, lakin Ermənistan Konstitusiyasına düzəlişlər edilmədən sülh müqaviləsinin mümkün olmadığını vurğulayıb. Eyni zamanda xəbərdarlıq edib ki, Rusiya və İran kimi xarici aktorlar əldə edilən irəliləyişi bloklamağa və ya pozmağa cəhd edə bilər (Haqqin.az).

Onun sözlərinə görə, ABŞ-nin regiondakı təsiri müxtəlif dövrlərdə artıb və azalıb: "Ancaq Vaşinqton hazırda Qafqaz gündəliyində fəal şəkildə iştirak edir, innovativ, "kreativ" həll yolları axtarır".

Kavano hesab edir ki, avqustun 8-də Vaşinqtonda əldə edilən Ermənistan-Azərbaycan razılaşmaları ABŞ-nin bu prosesdə daha mühüm rol oynaması üçün fürsət yaradır. Eyni zamanda o, Ermənistan cəmiyyətinin konstitusiya referendumunda necə səs verəcəyini proqnozlaşdırmağın çox çətin olduğunu bildirir və növbəti seçkilərdə sülh gündəliyinin Paşinyana uğur qazandıracağına şübhə edir.

"Təəssüf ki, aqressiv ritorika və qarşıdurma vədləri seçkilərdə sülhə yönəlmiş səylərdən daha çox rezonans doğurur. Ümid edirəm ki, Vaşinqtonda atılan addımlar hər iki tərəfə bu münaqişəyə nöqtə qoymaq ehtiyacını nümayiş etdirməyə kömək edəcək" , - deyə amerikalı diplomat qeyd edib.

Kavano habelə Vaşinqtonda Zəngəzur dəhlizi ilə bağlı əldə edilən razılaşmaların perspektivlərinə də şübhə ilə yanaşdığını söyləyib. O, ABŞ-nin bu nəqliyyat marşrutunun təhlükəsizliyini təmin etmək üçün ərazidə qüvvə yerləşdirmək öhdəliyi götürmədiyini, yəni Rusiya və ya İranın hərbi əməliyyatlarının istisna edilə bilməyəcəyini söyləyib.

Amerikalı sabiq həmsədr öz pessimist gözləntilərində nə dərəcədə haqlıdır? Şimal və cənub qonşularımız gerçəkdənmi sülh müqaviləsini və Zəngəzur dəhlizini əngəlləyə bilər və niyə? Belə perspektivdən necə yayınmalı?

**Deputat Elşad Musayev** "Yeni Müsavat"a bildirdi ki, bölgəyə sülh gəlib və silahlar susub. Bunun dayanıqlı olmasını arzulayan millət vəkili qeyd etdi ki, Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülh yolunda irəliləyib, buna mane olan istənilən qüvvə düşmən olaraq qiymətləndirilməlidir: "Əgər regionda sülhü istəməyən hansısa güc varsa, deməli, müharibə tərəfdarıdır. Bunlar Ermənistanın içindəki revanşistlər, kilsədəki qüvvələr və Kremldən himayə olunan keçmiş "Qarabağ klanı"na aid elektoratdır. Həmçinin Ermənistanda İrandan qidalanan bəzi destruktiv qruplar da sülh əleyhinə təbliğat aparırlar. Deməli, Moskva və Tehranda olan dairələr koordinasiyalı hərəkət edirlər. Bu baxımdan, Azərbaycan və Ermənistan rəhbərliyi bu təxribat cəhdlərinə, sülhə qarşı təbliğata cavab olaraq normallaşma prosesini sürətləndirməlidir. Xüsusən də Paşinyan administrasiyası tələsməlidir. İlk növbədə ərazi iddiaları konstitusiyadan çıxarılmalıdır. Bunu nə qədər tez reallaşdırsalar, yekun sülh sazişi bir o qədər erkən imzalanar. Çünki Ermənistanda seçkilər yaxınlaşır və özəlliklə Rusiya vəziyyəti gərginləşdirməyə çalışacaq".

**Deputat vurğuladı ki, amerikalı siyasətçinin proqnozlarına baxmayaraq, Bakı və İrəvan sülh yolunda böyük məsafə qət edib, etimad mühiti möhkəmlənir, qarşılıqlı səfərlər, təmaslar var:** "Rusiya və İranla yanaşı, Avropa İttifaqının da sülh prosesinə xələl gətirdiyini qeyd etmək lazımdır. Avropa İttifaqının Ermənistanla imzalanan sənədində sülh əleyhinə ifadələr yer alır. Bu mənada, biz sülhə mane olan bütün elementləri və təzyiq vasitələrini dəf etməli, tezliklə regiona dayanıqlı sülhün gəlməsinə nail olmalıyıq. Eləcə də Zəngəzur dəhlizinə nəzarət üçün Rusiya dəridən-qabıqdan çıxır, amma hər hansı müqavimət göstərə bilmir".

**Professor Elxan Mirzəyev Rusiya və İranın "mismarı eyni yerə vurduğunu" bildirdi. Onun ehtimalına görə, müttəfiq ölkələr regiona nəzarəti itirmək istəmir və bu niyyətlə sülhə əngəl olmağa çalışırlar:** "Hazırda bölgədə proseslər elə cərəyan edir ki, müdaxilə imkanı qalmayıb. Azərbaycan və Ermənistan etimad mühitini gücləndirir ki, üçüncü tərəfin təsiri olmasın. Artıq bu yola çıxmışıq və sülh quruculuğuna əngəl olmaq mümkün görünmür. Əgər Rusiya və ya İran qarışmaq istəsə, dərhal etirazla qarşılanacaq. Ona görə aşkar və kobud müdaxilə edə bilmirlər".

**Onun sözlərinə görə, Rusiya 10 noyabr sənədinə qayıtmağı xəyal edir, İran isə Zəngəzur dəhlizinin açılmasının əleyhinədir:** "Lakin hər iki tərəfin pozuculuq xarakteri daşıyan səyləri iflasa uğrayıb. Buna da səbəb bölgədə yeni formalaşan nizamdır. Azərbaycan hərb meydanında qələbədən sonra diplomatik cəbhədə də uğur qazanmaqdadır. Əvvəlcə vasitəçilərdən imtina olundu, ikitərəfli danışıqlarla sülh mətni hazırlandı, ardınca Vaşinqtonda paraflandı. Bu gün də delimitasiya işi gedir, yekun sülh sənədi üçün iş aparılır. Dəhliz də Trampın adını daşıyacaq deyə Rusiyanın nəzarət fürsəti əlindən çıxıb. Yəni Tehran və Moskva ciddi strateji itkilərlə üzləşib. Bu, Ukrayna, Suriya və Cənubi Qafqazda nəticələrini göstərməkdədir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Kamala ikinci "kruq" gəlir



**Samir SARI**

**Bir məşhur əhvalat var, onu, qəhrəmanın adını çəkmədən (onsuz da bilən bilir) yazıb, mətləbə keçəcəyəm.**

Deməli, bir məşhur alim qadın olur, ərindən boşanır, ikincə dəfə ərə gedir. Yarımır. Sonra qadın ondan da boşanası olur, üçüncü əri ilə ailə qurur. Amma iş elə gətirir ki, o, üçüncü ömür-gün yoldaşıyla da xoşbəxt olmur, dördüncü ilə izdivaca girir. Fəqət zavallı qadının bəxti bu dəfə də gətirmir. Cütlük ayrılır. Bu dəfə qadın birinci əri ilə yenidən barışır. Onun ikinci ərinin ikinci arvadı bu xəbəri eşidir, üçüncü ərinin ikinci arvadına zəng vurub deyir: "Gözün aydın, xanım ikinci kruq gəlir".

Kamala Harrisin 2028-ci ildə yenidən prezidentliyə namizəd olacağı barədə xəbəri oxuyanda yadıma ilk düşən lətifə bu oldu.

Heç demə, ABŞ-dəki demokratların partiyası rəy sorğusu keçirib, məlum olub ki, eks-prezident Baydenin yanında vitse-prezident işləyən Kamala Harris hazırda partiyasında ən nüfuzlu siyasətçidir. Bu gedişlə növbəti seçkilərdə o, "eşşəklər"in (partiyanın totemi ulaqdır) vahid namizədi ola bilər.

2028-ci ildə bu partiyanın düz 200 yaşı olacaq və bu münasibətlə K.Harris öz prezident mandatını doğma, əziz partiyasına hədiyyə etmək niyyətindədir.

Bu 200 ildə Demokrat Partiyasının üzvü olmuş 15 siyasətçi ABŞ prezidenti postunda oturub. Bu məsələdə demokratlar respublikaçılara 1:2 hesabıyla uduzurlar. Çünki respublikaçılardan 30 prezident çıxıb.

İntəhası, demokratların prezidentlərinin içində sanballı adamlar var. ABŞ prezidenti olmuş demokratların siyahısı belədir: Endrü Cekson, Martin Van Buren, Ceyms Noks Polk, Franklin Pirs, Ceyms Byukenen, Endrü Conson, Qrover Klivlend, (o, ABŞ prezidenti postunu 4 illik fasilədən sonra ikinci dəfə tutub - Tramp kimi), Vudro Vilson, Franklin Ruzvelt (4 dəfə prezident seçilən yeganə adam), Con Kennedi, Lindon Conson, Ceyms Karter, Bill Klinton, Barak Obama və Co Bayden.

Ruzvelt və Kennedini geniş təqdim etməyə ehtiyac yoxdur, onları hamı tanıyır. İndiki cavanlar Bill Klintonu tanımazlar, tanısalar da, Monika Levinski ilə "levı" getməsinə görə tanıyarlar. Obama və Bayden isə dünənin-srağagününün prezidentləridir, unudulmuş olmazlar.

Əslində ABŞ siyasətində "gedərəm, yenə gələm" ənənəsinin özülünü Klivlend qoyub. Trampa qədər heç bir prezident vəzifədən getdikdən sonra geriyə qayıtmayıb. Hətta bir dəfə seçkidə prezidentliyə namizəd olub uduzmuş siyasətçilər də ikinci dəfə namizəd olmayıblar (belələri olubsa da, nadir olub). İndi K.Harris hesab edir ki, 2024-cü ildə nüfuzdan düşmüş Baydenin badına gedib, öz gücünə qalsa, seçilə bilərmiş.

Oxumuş adamlardan biri düz deyib ki, hakimiyyət adamda asılılıq yaradır, bir müddət ali vəzifədə oldunsa, yenə olmaq istəyirsən, sonra yenə də, yenə də. Bax, ona görə də Kamerunda 92 yaşlı Pol Biya yenidən prezident seçildi. Adam artıq seçilməyə vərdiş edib.

Görünür, 4 il vitse-prezident postunda oturması Kamala xanımın kimyasını bir balaca dəyişdirib. Vəzifəyə təzə gələndə məsumanə görünüşü vardı, universitet müəllimiykən nazir qohumunn hesabına deputat seçilmiş xanımlara oxşayırdı, amma indi özünü "dəmir ledi" kimi aparır.

Bəs ölkəmizdə "ermənilərin himayədarı" kimi tanınan Kamala prezident seçilə bilərmi? Nə yalan deyək, seçilə bilər. Tramp ölkəsində və dünyada elə bir tort qazanı qaynadır ki, bu saat respublikaçıların bir hissəsi də onun, türkün sözü, bir an öncə hakimiyyətdən getməsini istəyir.

Ancaq belə anlaşılır ki, Trampın canı özünə yar gəlsə, yenidən prezident seçilmək istəyəcək. Ta bu ABŞ konstitusiyasına nə dərəcə uyğundur, uyğun deyil, sonrakı söhbətdir. Yeri gəlsə, konstitusiyanı dəyişmək olar və ya içində elə bir maddə tapmaq mümkündür ki, o, Trampa yenidən namizəd olmaq hüququ verər.

Elə olsa, onda o, seçkiqabağı kampaniyasında Kamala Harrisə qarşı daşdan keçən arqumentlə çıxış edəcək: "Gəlmişdiniz də, gördük", "sizin vaxtınızda xalq jımıx yeyirdi" və s.

Hərçənd respublikaçılar seçkiyə yeni və gənc namizədlə qatıla bilərlər, onda Kamala Harrisin ikinci "kruq" gəlməsi uğurlu olmaya bilər.

Amerika camaatı mühafizəkardır, Trampa bir dəfə səs veribsə, onun namizədinə də səs verə bilər.

Amma yenə də dünyada qadınların rolunun artması tendensiyasını nəzərə alsaq, ehtimal etmək olar ki, Harrisin prezident seçilmək şansı var.

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# Azərbaycan və Ermənistan üçün yeni dəhliz - dənizdən okeana...

**“Qərb yolların açılmasını gözləyir”. Bunu jurnalistlərlə qısa söhbətində Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib. Erməni nazirin sözlərinə görə, Almaniya prezidenti və kansleri ilə baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi nümayəndə heyətinin görüşlərinin gündəliyi əsasən iqtisadiyyat olub: “Hamını maraqlandıran sual bu idi ki, Ermənistan-Türkiyə sərhədi nə vaxt açılacaq, Ermənistan-Azərbaycan sərhədi nə vaxt açılacaq. Çünki Avropada Mərkəzi Asiya ilə, Çinlə bağlı çoxlu proqramlar mövcuddur. Bu proqramların məntiqi ondan ibarətdir ki, bütün bu yüklər buraya gəlib Orta dəhliz vasitəsilə keçməlidir. Yollardan biri əgər Azərbaycan-Gürcüstan-Qara dəniz marşrutudursa, digər yol Azərbaycan-Ermənistan-Türkiyə-Aralıq dənizi və ya Türkiyə üzərindən Avropaya uzanan marşrutdur. Hətta onların təklif etdiyi yaşıl hidrogenin daşınması imkanını da müzakirə etdik, çünki hazırda bu istiqamətdə çox böyük layihələr həyata keçirirlər və bütün bunlar "Sülh kəsişməsi" (Zəngəzur dəhlizi), TRIPP, yolların açılması imkanları ilə bağlıdır".**




Bu açıqlamadan məlum olur ki, Paşinyanın səfərində Almaniya üçün bir nömrəli məsələ dəhlizlər və Mərkəzi Asiyadan tranzit daşımaları olub. Bu isə təsadüfi deyil: Avropa İttifaqı, ardınca isə ABŞ Mərkəzi Asiyadan keçən ticarət yollarından pay götürmək, regionun nəqliyyat-logistika imkanlarından bəhrələnmək üçün son iki ildə fəaliyyətlərini kəskin artırıblar. Bu prosesdə Mərkəzi Asiya ölkələrindəki nadir element ehtiyatları da mühüm rol oynayır. 2024-cü ildən Avropa İttifaqı Mərkəzi Asiya-Xəzər-Azərbaycan marşrutu ilə yükdaşımaların canlandırılması üçün müxtəlif layihələrin maliyyələşdirilməsinə qoşulub. Həmin il Aİ bölgədən keçən Transxəzər Nəqliyyat Marşrutu infrastrukturuna 10 milyard avro yatıracağını açıqlayıb, ilk 3 milyard avroluq müqavilələr Qazaxıstan və Özbəkistanla imzalanıb.

Bu ilin aprelində Özbəkistanın paytaxtı Səmərqənddə üçüncü Avropa İttifaqı-Mərkəzi Asiya sammiti keçirilib. Sammitdə Aİ-nin yüksək vəzifəli şəxsləri iştirak edib. Brüssel Mərkəzi Asiyanı Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə iqtisadi alternativ və davamlı inkişaf üçün alət kimi irəli sürdüyü Global Gateway təşəbbüsündə görmək istəyir. Qlobal Gateway Avropa İttifaqının vəsaiti hesabına Asiya və Afrikada infrastruktur və rəqəmsal layihələrin həyata keçirilməsi üçün uzunmüddətli müqavilələrin bağlanmasına yönəlmiş Aİ proqramıdır.

Donald Trampın hakimiyyətə gəlişi ilə ABŞ də bölgəyə diqqətini artırıb. Avqustda Vaşinqtonda Azərbaycan-Ermənistan-ABŞ müqavilələri imzalanıb. Noyabrın əvvəlində isə Mərkəzi Asiyanın 5 ölkəsinin rəhbəri Vaşinqtonda Trampla görüşüb, bir sıra müqavilələr imzalayıblar. Analitiklərə görə, Vaşinqton razılaşmaları ABŞ-nin Orta Asiyaya daxil olmasına yol açır. Son illərdə regional və ikitərəfli əlaqələr çərçivəsində Azərbaycanla Orta Asiya ölkələri arasında çoxvektorlu (mədəni, iqtisadi, siyasi və hərbi) əlaqələr güclənib. Enerji və tranzit əməkdaşlığına xüsusi diqqət yetirilir. Azərbaycan regional forumlarda mühüm qonaq olur, münasibətlər 5+1 formatında sürətlə dərinləşir.

Qazaxıstan və Özbəkistan liderləri Zəngəzur dəhlizi ilə bağlı Vaşinqton razılaşmalarını böyük nikbinlik və ümidlə qarşılayıblar. Bu, bütün Mərkəzi Asiya ölkələri üçün xüsusi iqtisadi perspektivlər və faydalar açır.

Bəzi mənbələrə görə, noyabrın əvvəlindəki Vaşinqton görüşündə keçirilən sammitdən əvvəl Qazaxıstan əsas regional və tranzit rolunu nəzərə alaraq, Azərbaycanın da tədbirdə iştirakı üçün lobbiçilik etməyə çalışıb.

Məlumdur ki, Vaşinqtonda bir sıra iqtisadi və siyasi müqavilələr imzalandı (məsələn, Özbəkistanla ABŞ iqtisadiyyatına 35 milyard dollarlıq investisiya, Qazaxıstanla volfram hasilatı sahəsində 1 milyard dollarlıq investisiya və Astananın İsraillə İbrahim Sazişlərinə qoşulması və s.). Tramp sammiti Orta Asiyanın inkişafı üçün “əlamətdar hadisə” adlandırıb və sələflərini siyasi uzaqgörənliklərinə və regionun bol ehtiyatlarına kifayət qədər diqqət yetirmədiklərinə görə yenidən tənqid edib.

Aydın məsələdir ki, Aİ və ABŞ-nin bölgədəki fəallığı özlərini oranın ağası hesab edən Rusiya və Çin tərəfindən razılıqla qarşılanmayıb. Rusiya mətbuatında gedən təhlillər, səsləndirilən rəylərdən aydın olur ki, Moskva ABŞ-nin bölgədəki son addımlarını hibrid müharibə kimi dəyərləndirir. İddia olunur ki, uzun sürən Rusiya-Ukrayna hərbi-siyasi böhranı ABŞ tərəfindən Rusiyanın ehtiyatlarını tükəndirmək və Moskvanın diqqətini “postsovet cənubu”ndan yayındırmaq üçün başladılıb. Eyni zamanda ABŞ yaydakı hücumu ilə bölgədə ciddi maraqları olan İranı zəiflətmək, TRIPP layihəsi ilə həm Rusiyanı mühüm regional dəhlizdən kənarda qoymaq, həm də ABŞ-ın ticarət müharibəsi apardığı Çinin bölgədəki nüfuzunu zəiflətmək məqsədi güdüyü iddia olunur.

Rusiya açıq dillə Mərkəzi Asiya və Cənubi Qafqazdakı 80 milyonluq bazarı, zəngin resurslara çıxışı və kommunikasiyanı itirməyəcəyini elan edir. Özü də bu, xarici işlər naziri Sergey Lavrov tərəfindən elan edilir. O, bir neçə gün əvvəlki mətbuat çıxışında Mərkəzi Asiya və Cənubi Qafazda ABŞ və Aİ-nin dəstəklədiyi nəqliyyat layihələrini bölgələrdə hegemonluğu ələ keçirmək cəhdi, onlarda iştirakı isə “vassallığı” qəbul etmək kimi qiymətləndirib.

Qeyd edək ki, Çin AB, və Aİ-nin regionda fəallaşmasına açıq təpki göstərmir. Məsələ burasındadır ki, Orta dəhlizin özü təkcə amerikalılar üçün deyil, xüsusən də çinlilər üçün faydalıdır, çünki bu, onların Avropa bazarlarına tranzit yollarını qısaldacaq. Dəhliz Çinin İran və Rusiya üzərində təsirini daha da gücləndirəcək. Əgər Avropa ilə ABŞ arasında münasibətlər pisləşərsə, Çin özünü Brüsselə etibarlı ticarət tərəfdaşı kimi təqdim edəcək. Buna görə də Çin Mərkəzi Asiya ölkələrini özünün “Bir kəmər, bir yol” təşəbbüsünə cəlb edərək, onların ərazisindəki nəqliyyat-logistik infrastruktura külli miqdarda sərmayə yatırır.

Son iki ildə Çin Xəzərin bu tayında da fəallığını artırıb. Əvvəl Gürcüstanda iqtisadi layihələrdə iştirakını genişləndirən Pekin indi diqqəti Azərbaycan və Ermənistan üzərində cəmləyib. Hər iki ölkə ilə iqtisadi-siyasi əlaqələr sürətlə dərinləşdirilir.

Bütün bunların fonunda həm Mərkəzi Asiya ölkələri, həm də Azərbaycan böyük güclərin bölgədəki maraqları arasında öz mənafeyinə uyğun manevrlər edərək, bütün mənbələrdən investisiya cəlbinə, öz ərazilərindəki infrastrukturu inkişaf etdirməyə çalışırlar. Bu baxımdan, Zəngəzur dəhlizinin açılması istiqamətində təşəbbüsləri hamı dəstəkləyir.

Azərbaycan üçün bu dəstək mühüm əhəmiyyətə malikdir: Zəngəzur dəhlizinin işə düşməsi ilə, nəhayət ki, Türkiyə və onun üzərindən Avropaya alternativ, bir çox baxımından daha sərfəli çıxış əldə ediləcək. Gürcüstandan bu sahədə asılılığın azalması Bakının dividentlərindən daha biridir. Ən əsası isə Naxçıvana birbaşa çıxış imkanı yaranacaq və bu sahədə İrandan asılılıq aradan qalxacaq.

Bir çox aspektdən yanaşdıqda Bakının yeni dəhlizdən iqtisadi dividentdən daha çox siyasi üstünlüklər əldə edəcəyi görünür: Azərbaycanla nəqliyyat kommunikasiyasının bərpası, Zəngəzur dəhlizi kimi mühüm layihədə ortaq iştirak Ermənistana kifayət qədər iri gəlirlər təmin edəcək. Bu isə İrəvandakı revanşist qüvvələrin nüfuzunun azalması, yeni qarşıdurma ehtimalının minimuma enməsi deməkdir.

Eyni zamanda Azərbaycan mühüm regional tranzit qovşağına çevrilməklə beynəlxalq arenada öz mövqeyini xeyli gücləndirmiş olacaq.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Zəngəzur dəhlizindən əlavə, Şərqlə Qərb, Şimalla Cənub arasında reallaşan mühüm regional və beynəlxalq əhəmiyyətli layihələrin iştirakçısıdır. Ölkə Orta dəhlizlə yanaşı, Mərkəzi Asiyadan təmiz enerjinin Avropaya çatdırılmasını nəzərdə tutan nəhəng layihənin ən aktiv iştirakçısı, ən mühüm həlqəsidir. Bu layihənin icrası istiqamətində işlər sürətləndirilir: artıq Azəbaycan-Qazaxıstan-Özbəkistan birgə müəssisəsinin yaradılmasına başlanıb, bərpa olunan mənbələrdən enerji istehsalı üçün hər 3 ölkədə böyük sərmayə qoyuluşlarına start verilib.

Digər tərəfdən, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi çərçivəsində Rusiya və İranla aktiv əməkdaşlıq davam etdirilir. Bu dəhlizin ən səmərəli hesab olunan Qərb qolu Azərbaycan üzərindən keçir. Hazırda dəhlizdə yükdaşımaların artırılması üçün dəmiryol infrastrukturunun yenidən qurulması işləri həyata keçirilir, Bakı bunun üçün xarici maliyyə qurumlarından böyük vəsaitlər cəlb edib.

Qeyd olunanlar göstərir ki, Şərqdən Qərbə, Şimaldan Cənuba yönələn bütün perspektivli layihələrdə Azərbaycanın yeri, mühüm payı var. Zəngəzur dəhlizi bu yerin daha da möhkəmlənməsinə gətirib çıxaracaq.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

Milli şüur, vətənpərvərlik

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Milli dəyərlərin təbliği ilə bağlı vahid proqram hazırlanmalıdır"

**"Məktəblərdə vətənpərvərlik mövzusunun təbliği istiqamətində atılacaq addımları, onların kəmiyyət və keyfiyyət müstəvisində inkişafını sürətləndirmək hazırda tədris prosesi üçün hava-su kimi vacib məsələlərdəndir. Lakin bu yöndə görüləcək işlər daha çox bir faktordan asılıdır".**

## Tədqiqatçı: "Vətənpərvərlik mövzusu orta məktəblərin əsas vizyonuna çevrilməlidir..."


Elmin Nuri

Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında **elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri** bildirib. O hesab edir ki, bu xüsusda özümüzəməxsus olan, sırf milli təhsil brendimizin yaradılması və tədris prosesinin onunla tamamilə uyğunlaşdırılması çox önəmlidir: "Belə olan təqdirdə milli vətənpərvərlik hisslərinin təbliği və onun faydalılıq mexanizmi uğurlu ola bilər. Yalnız bu zaman təhsil özü bir sistem olaraq milli dəyərlərin daha da gücləndirilməsi üçün çox güclü motivator rolunu oynamağı bacaracaq. Məktəb, təhsil azərbaycançılıq ideologiyasının, milli yaddaş konsepsiyamızın qorunmasında, gələcək nəsillərə çatdırılmasında hər zaman ən önəmli faktorlardan olub. Bu gün isə Azərbaycan məktəbinin, təhsilinin üzərində ikiqat şərəfli və çətin missiya var: o, gəncliyi həm milli yaddaşın sağlam dəyərləri kontekstində formalaşdırmalı, həm də XXI əsrin modern inkişaf mexanizminin fonunda inkişaf etdirməlidir.

Milli şüurla bəşəri dəyərlərin ortaq nöqtəsində hərəkət yeni milli təhsil modelinin formalaşdırılmasını zəruri edir. Milli təhsil modelimiz Zəfərdən sonrakı dönəmdə məktəbyaşlı uşaqlardan başlayaraq, formalaşmaqda olan gənclik üçün milli bələdçi funksiyasını layiqli şəkildə həyata keçirə bilər. Yeni təhsil standartları və məzmun xətlərini əhatə etməli olan milli təhsil modeli şəxsiyyət texnologu, insan mühəndisliyi funksiyasını prioritet hesab etməli, tədris prosesini informasiyanın təkcə qəbulu deyil, onun düzgün emalı, həyati tətbiqi mexanizmi kimi dəyərləndirməlidir".

**Onun sözlərinə görə, şagird üzərində şəxsiyyət mühəndisliyi rolunu oynamalı olan bu model fərdin çağdaş praktiki bilik və bacarıqlarının yalnız milli dövlətçilik meyarları üzərində inkişaf etməsini əsas götürməli, pedaqoji işin təşkilini ancaq bu halda düzgün hesab etməlidir:** "Milli təhsil modeli və onun tədris prosesində tətbiqi mexanizminin hazırlanması, dünya təhsilinin öncül modellərinin uğurlu təcrübələri ilə milli təfəkkür, milli şüur, dövlətçilik ənənələrinin inkişafına xidmət edən örnək elementlərin sintezinə çalışmaq təhsil istiqamətində prioritet çağırışlar kimi qəbul edilə bilər. Şəxsiyyət mühəndisliyi missiyasının praktiki məkanı sinif otağı yox, insanın şüuru, yaddaşı və psixoloji aurasıdır. Müəllim bu aurada necə qalacaqsa, mühəndislik funksiyasını da o cür yerinə yetirəcək".

**E.Nurinin fikrincə, xüsusi diqqət edilməli məsələ budur ki, şəxsiyyət mühəndisliyi missiyasının da alt bazası, bünövrəsi elə sinif otağında formalaşır:** "Şagirdini şəxsiyyət, cəmiyyət üçün lazımlı kadr gözündə görən müəllim onu yalnız əzbərçi faktlarla yükləmir, situasiyaya görə düzgün qərarvermənin modullarını öyrədir, düşüncə dənizinin sahillərinə çıxarır, üzməyin ilk elementlərini ona başa salır. Bunun üçün isə ilk növbədə aşağıdakı addımların atılmasına ciddi ehtiyac vardır: birincisi, məktəblilərdə vətənpərvərlik mövzusunun təbliği, milli dəyərlərin daha geniş piarı üçün öncə sırf bununla bağlı vahid proqram və tövsiyələr paketi hazırlanmalıdır. Həmin tövsiyələr paketi hər bir orta ümumtəhsil müəssisəsi üçün bələdçi rolunda çıxış etməlidir.

Hər məktəb daxilində sırf bu məqsədlə ictimai əsaslarla müəllim və rəhbər heyətin, həmçinin bir neçə uyğun valideyndən ibarət komissiya yaradılmalıdır. Komissiya sinif rəhbərləri, ibtidai sinif müəllimləri ilə qarşılıqlı müzakirə fonunda tədris ili boyu sırf bu məqsədlə görüləcək işlərin proqramını tərtib etməli və onların icrasını, keyfiyyətini nəzarətdə saxlamalıdır. Vətənpərvərlik mövzusu bir çox məktəbin əsas vizyonuna çevrilməlidir.

Məktəbdaxili ab-hava uşaqdan-böyüyə az qala, hər kəsə vətənpərvərlik mövzusunda ciddi təsir göstərməlidir. Bu gün bir çox məktəblərimizdə o ovqatı görürük. Məsələn, bir çox siniflərə şəhid adlarının verilməsi, onlar haqqında məlumat və portretlərin şagirdlərə tanıtımı kimi addımlar çox vacibdir. Lakin məsələnin başqa tərəfi də var: bu yolda məktəbi tək buraxmaq qətiyyən olmaz. Şagird həm də cəmiyyətin fərdi olaraq aid olduğu mühitin dəyərlərini məktəbə gətirir. Buna görə də ailə mühiti, yaxın çevrə hər məktəbli ilə ünsiyyət zamanı bu məsələyə xüsusi diqqət yetirməlidir".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# Qida mütəxəssisi: "Çindən gətirilən bu fincanlar orqanizmdə ciddi fəsadlar yarada bilər"

**Qida Təhlükəsizliyi Agentliyinin Avropa İttifaqının "Qida və Yem Məhsullarına dair Çevik Xəbərdarlıq Sistemi" vasitəsilə əldə etdiyi məlumata əsasən, Çin istehsalı olan bəzi fincanlarda kadmium və qurğuşun kimi ağır metalların miqrasiyası aşkar edilib. Mütəxəssislər tərkibində ağır metal aşkarlanan məhsulların insan sağlamlığı üçün təhlükəli olduğunu bildirirlər. Onları adi gözlə müəyyən etmək isə mümkün deyil.**

"Bu metalların zərəri dərhal deyil, zamanla orqanizmdə toplanaraq daxili orqanlara, xüsusilə qaraciyər və böyrəklərə mənfi təsir göstərir, hormonal balansı pozur. Onlar azyaşlı uşaqlarda, yaşlılarda, immun sistemi zəif olan insanlarda, hamilə və süd verən qadınlarda daha ciddi fəsadlar törədə bilər", - deyə **qida mütəxəssisi Məhsəti Hüseynova** bildirib.



M.Hüseynova əlavə edib ki, keyfiyyət sertifikatı olan, içi boyalı olmayan, şüşə və ya saxsı materialdan hazırlanmış məhsullara üstünlük verilməlidir. Qızılı və ya parlaq rəngli bəzəkləri olan fincanlar isə şübhəli sayılır.

**Hüquqşünas Vüsal Cəfərov**un sözlərinə görə, İnzibati Xətalar Məcəlləsinə əsasən, standartlara və normativ sənədlərə uyğun olmayan malların istehsalı, satışı və xidmətlərin göstərilməsi inzibati məsuliyyətə səbəb olur. Bu maddə üzrə fiziki şəxslər 350 manatdan 500 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər isə 4000 manatdan 6000 manatadək cərimə oluna bilərlər: "Eyni zamanda qida tərkibi ilə bağlı qanuna uyğun olaraq qeydiyyatı tələb olunan, lakin qeydiyyatdan keçməmiş məhsulların istehsalı, emalı, satışı, saxlanması və ya başqa formada dövriyyəyə buraxılması da inzibati məsuliyyətə səbəb olur".

İdxal olunmuş məhsulların müvafiq sənədləri və aktı olmadan satış məqsədilə saxlanması, satılması və ya başqa formada dövriyyəyə buraxılması da inzibati məsuliyyət yaradır. Bu zaman fiziki şəxslər 350, vəzifəli şəxslər 1500-2000, hüquqi şəxslər isə 3000-5000 manatadək cərimə oluna bilərlər.

# DİM "İmtahan əməliyyatı"nın detallarını açıqladı



**Dövlət İmtahan Mərkəzi (DİM) bu il keçirilən buraxılış və yaz qəbul imtahanlarındakı qayda pozuntuları ilə detalları açıqlayıb. Açıqlamada qeyd edilib ki, iş üzrə təqsirləndirilən şəxslər - Gündüz Abbasov və Kamran Əsədov qadağan olunmuş texniki cihazlar vasitəsilə Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək imtahanlardan asanlıqla keçmələrinə kömək göstərilməsi üçün onlara müraciət etmiş müxtəlif şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaiti alıb aralarında bölüblər.**

"Onlar müxtəlif yerlərdə abituriyentlərlə görüşərək texniki cihazlardan istifadə olunma qaydasını izah ediblər. Qeyd edək ki, bu cihazların yerləşdirilməsi üçün altı qalın idman tipli ayaqqabılardan istifadə olunub. Onların alt hissəsi xüsusi alətlə kəsilərək genişləndirilib. Beləliklə kənardan baxılanda ayaqqabının altlığında kənar əşyaların olmasını girişdə müəyyən etmək mümkün olmayıb.

Həmin abituriyentlər daha sonra sanitar qovşağa gediblər (qaydalara əsasən imtahan başlayana qədər iştirakçıların təbii ehtiyaclarını ödəməsinə imkan yaradılır). Orada onlar qulaqlığı xüsusi çubuq vasitəsilə qulaqlarına, kameranı köynəyin düymə hissəsinə, ötürücü cihazı xüsusi yapışqan vasitəsilə çiyinlərinə, internet paylacı cihazı isə ayaqqabının daban hissəsinə yerləşdiriblər. Daha sonra sinif otağına qayıdıblar və imtahan başlayandan sonra üzərlərində olan kameranı kitabçaya tutmaqla görüntünü qarşı tərəfə ötürüblər. Qarşı tərəf isə öz telefonunda olan xüsusi proqram vasitəsilə görüntüləri canlı şəkildə əldə edib. Cavablar isə üzərində "vip smart" sözləri yazılmış nazik plastik karta oxşayan və üzərində hər hansı düymə və s. olmayan telefona zəng etməklə bildirilib. Belə ki, kartın üzərində olan nömrəyə zəng gəldikdə avtomatik telefon açılır və zəng edən şəxsin səsi eşidilir", - məlumatda qeyd olunub.

Yeni Müsavat
N 239 (8840) 11 dekabr 2025

# Amnistiya aktı bu tarixdə hazır olacaq - müzakirələr başlayır

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Milli Məclisə ünvanlı amnistiya təşəbbüsü ilə çıxış edib. Qarşıdakı amnistiya aktının təxminən 20 min nəfəri əhatə edəcəyi gözlənilir.**

Bəs parlament müzakirələrə nə vaxt başlayacaq? Müzakirələr nə qədər sürə bilər və sənəd nə vaxta hazır olacaq, qüvvəyə nə vaxt minəcək? İcrasına nə vaxt başlanacaq? Təcrübə nə deyir?

**Əfv Komissiyasının üzvü, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əlimməmməd Nuriyev** "Yeni Müsavat"a deyib ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Prezident İlham Əliyevin irəli sürdüyü amnistiya təşəbbüsü artıq real hüquqi prosedur mərhələsinə keçib. Onun sözlərinə görə, Prezidentin Milli Məclisə ünvanladığı müraciət və bu müraciət əsasında hazırlanmış amnistiya aktı layihəsi artıq parlamentə daxil olub və müzakirə mexanizmi işə düşüb: "Layihə 16 dekabr tarixində Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə ediləcək, 19 dekabrda keçiriləcək plenar iclasa tövsiyə olunub".



Əlimməmməd Nuriyev qeyd edib ki, bu mərhələ artıq təşəbbüsün praktiki müstəviyə keçdiyini göstərir: "Komitə mərhələsinin başa çatması onu göstərir ki, məsələ artıq konkret qərar fazasındadır. Bu, parlament prosedurunda ciddi irəliləyiş sayılır və prosesin planlı şəkildə getdiyini göstərir".

**Onun sözlərinə görə, Prezidentin təşəbbüsü ilə irəli sürülən amnistiya aktları Milli Məclis praktikasında adətən operativ şəkildə baxılan məsələlər sırasına daxildir:** "Belə təşəbbüslər uzun müzakirələrə buraxılmır. Artıq komitə rəyinin verilməsi onu deməyə əsas verir ki, sənəd plenar iclasda da ciddi ləngimə olmadan müzakirə ediləcək".

Əlimməmməd Nuriyev vurğulayıb ki, gözlənilən amnistiya aktının geniş əhatə dairəsi müəyyən hüquqi dəqiqləşdirmələri qaçılmaz edir: "Təxminən 20 min nəfəri əhatə edə biləcək bir sənəddən danışırıq. Bu miqyas texniki baxımdan maddələr üzrə dəqiqlik tələb edir. Amma bu, prosesi uzatmaq üçün yox, səhvsiz və ədalətli tətbiq üçün lazımdır".

**Hüquqşünasın sözlərinə görə, amnistiya aktı qəbul edildikdən sonra dərhal qüvvəyə minir, lakin icra prosesi mərhələli şəkildə həyata keçirilir:** "Qanun qəbul olunur, amma icra bir gündə başa çatmır. Penitensiar müəssisələr, məhkəmələr, probasiya və istintaq orqanları üzrə hüquqi filtrasiya aparılır. Bu proses neçə ay çəkə bilər və bu tam normaldır".

**Əlimməmməd Nuriyev hesab edir ki, bu təşəbbüsün əsas məzmunu yalnız hüquqi yox, həm də ictimai-siyasi xarakter daşıyır:** "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürülən amnistiya dövlətin zəifləməsi yox, güclü dövlətin verdiyi balanslı qərardır. Dövlət göstərir ki, cəza məqsəd deyil, vasitədir və əsas hədəf insanın cəmiyyətə qayıdışıdır".

Onun fikrincə, bu addım eyni zamanda cəmiyyətə də aydın mesaj verir: "Bu cür qərarlar hüquqi sistemdə gərginliyi azaldır, cəmiyyətlə dövlət arasında etimadı möhkəmləndirir və ikinci şans anlayışının real mexanizm olduğunu göstərir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Azərbaycan xarici ticarət üçün "vahid pəncərə" yaradır - hədəf

## Deputat: "Ölkə ərazisindən tranzit daşımaların artması tranzit gəlirlərin artmasına gətirib çıxaracaq"

**Prezident İlham Əliyev idxal-ixrac, tranzit, nəqliyyat və logistika fəaliyyətlərinin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb. Sənədə əsasən, ölkədə xarici ticarətin tənzimlənməsində dövlət idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və dövlət qurumlarının səmərəli əlaqələndirilməsinin təmin edilməsinə yönəlmiş "Vahid pəncərə" informasiya sistemi yaradılacaq.**

Yeni sistem idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üçün vahid əlçatanlıq nöqtəsinə əsaslanan tam rəqəmsal mühitin yaradılmasını, eləcə də "ağıllı" yük axını idarəetmə sisteminin tətbiqini nəzərdə tutur.

**Milli Məclisin deputatı Azər Badamov "Yeni Müsavat"a mövzunu belə şərh etdi:** "Prezident İlham Əliyevin xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi, idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılması, həmçinin yük axınlarının "ağıllı" idarə edilməsi sisteminin tətbiqi ilə bağlı imzaladığı fərman, xarici ticarətin stimullaşdırılmasına yönəlmiş kompleks və strateji islahat sənədidir. Bu fərman xarici ticarət sahəsində maneələri aradan qaldıraraq ticarət proseslərini daha sürətli, əlçatan və rəqabətqabiliyyətli edəcək. Fərmandan göründüyü kimi, idxal-ixrac və tranzit üzrə bütün prosedurlar vahid elektron platformada cəmləşdiriləcək. Yeni xarici ticarətin iştirakçıları üçün sənədlərin icra müddətləri azalır, logistika və gömrük xərcləri azalır, yüklər gömrük buraxılışından daha sürətli keçid edir. Təbii ki, bu da malların maya dəyərinə təsir göstərir və xarici bazarlara daha aşağı qiymətlərlə çıxışların təmin olunmasına yol açır. Yüklərin ağıllı idarəedilməsi və bütün məlumatların rəqəmsallaşdırılması yüklərə nəzarətin və tranzit daşımaların sürətinin artmasına töhfə verəcək.



Nəticədə ticarət zənciri daha etibarlı və proqnozlaşdırılan olur, bu isə xarici tərəfdaşların və logistika şirkətlərinin ölkə ilə işləməyə marağını artırır. Bu, ölkəmizin yaratdığı beynəlxalq nəqliyyat dəhlizlərə marağın artmasına və daha çox tranzit yüklərin cəlb edilməsinə yol açacaq. Təbii ki, ölkə ərazisindən tranzit daşımaların artması tranzit gəlirlərin artmasına gətirib çıxaracaq. Bu, həm də ölkədə qeyri-neft sektorunun inkişafını stimullaşdıracaq. Belə ki, sahibkarlar istehsal etdiyi malları xarici bazarlara daha rahat ixrac edə biləcək. Xidmətlərin rəqəmsallaşması və keçidlərin sürətlənməsi həm də şəffaflığın artmasına və idxal-ixracla məşğul olan tərəflərin müvafiq xidmətlərə etimadın artmasına töhfə verəcək. Beləliklə, deyə bilərik ki, ağıllı keçidin təmin olunması, tranzit logistik keçidlərin sürətlənməsi və rəqəmsallaşdırılması orta və uzunmüddətli perspektivdə ölkə ərazisindən daşınan tranzit yüklərin həcmlərinin və xarici ticarət dövrüyyəsinin artmasına öz təsirini göstərəcək".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# 28 rayonda 400 mindən artıq fermer aqrar festivallara qatılıb



**Dekabrın 16-da Bakıda aqrar biznes festivallarına həsr olunmuş yekun tədbir keçirilib.**

"Yeni Müsavat" xəbər verir ki, tədbiri giriş sözü ilə açan **kənd təsərrüfatı naziri Məcnun Məmmədov** dövlət başçısının aqrar sektora göstərdiyi ardıcıl diqqət və qayğı nəticəsində bu sahədə genişmiqyaslı islahatların həyata keçirildiyindən danışıb. Nazir deyib ki, fermerlərin fəaliyyət imkanları əhəmiyyətli dərəcədə genişləndirilib, regionların dayanıqlı inkişafı üçün möhkəm əsaslar formalaşdırılıb.

M.Məmmədovun sözlərinə görə, son illərdə kənd təsərrüfatında istehsalın səmərəliliyinin artırılması, müasir texnologiyaların tətbiqi, fermerlərin maliyyə və texniki resurslara çıxışının asanlaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Rəqəmsal həllərin tətbiqi, elektron kənd təsərrüfatı platformasının genişləndirilməsi, ekoloji cəhətdən dayanıqlı istehsal modellərinə keçid dövlət siyasətinin əsas istiqamətlərindəndir.

**Nazir bildirib ki, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə və dəqiq kənd təsərrüfatının tətbiqi aqrar sektorun rəqabətqabiliyyətliliyini daha da artırır:** "Məhz bu strateji hədəflərin regionlarda təşviqi məqsədilə aqrar biznes festivalları təşkil olunub. Cari ildə ölkənin 13 iqtisadi rayonunu əhatə edən 28 rayonda 32 festival keçirilib, bu tədbirlərdə 400 mindən artıq fermer və sahibkar iştirak edib, 8 milyon manatdan artıq satış icra olunub. Festivallar çərçivəsində toxum sərgi-satış yarmarkaları, kredit yarmarkaları, panel müzakirələr və təlimlər təşkil edilib. Bu festivallar kiçik və orta sahibkarlığın inkişafına, qadın fermerlərin və gənclərin aqrar sahəyə fəal cəlb olunmasına, bilik və təcrübə mübadiləsinin genişlənməsinə mühüm töhfə verib. Eyni zamanda məhsul festivalları regionların ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının tanıdılmasına və brendləşdirilməsinə şərait yaradıb".

M.Məmmədov əlavə edib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun olaraq aqrar biznes festivalları gələcək illərdə də kənd təsərrüfatının innovativ, rəqabətqabiliyyətli və dayanıqlı inkişafına mühüm töhfələr verəcək.

❑ **Nigar HƏSƏNLİ, Musavat.com**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

**Tovuzda 14 yaşlı qızın toy mərasiminin qarşısı alınıb. Daxili İşlər Nazirliyindən verilən xəbərə görə, rayon polis şöbəsinə Yuxarı Öysüzlü kəndində 2011-ci il təvəllüdlü qızın toy mərasimi keçirilməsi barədə məlumat daxil olandan sonra mərasimin qarşısı polis əməkdaşları tərəfindən alınıb və valideynlər yerli polis bölməsinə çağırılıb. Onlarla profilaktik söhbətlər aparılıb, qanuni tələblər izah edilib və inzibati protokol tərtib edilərək məhkəməyə təqdim olunub. Məhkəmənin qərarı ilə valideynlərdən biri bir ay müddətinə inzibati həbs edilib.**

# Daha bir azyaşlı rəzaləti - məktəbli qızları erkən evlilikdən necə qorumalı?



**Məktəbli N.Əsgərova bildirib ki, imkansızlıqdan təhsilinə davam edə bilməyib**: "Mahir Ələkbərov adına Öysüzlü kənd tam orta məktəbində oxuyurdum. Altıncı sinifdən çıxmışam. Səbəb imkansızlıq oldu. Təzədən yenə məktəbə müraciət etdim, qəbul eləmədilər, dedilər, bu məktəbdə yer yoxdur".

Bəs niyə qanunların sərtləşdirilməsindən sonra da ölkədə belə hallar azalmır? Məktəbli qızları erkən evlilik rəzalətindən necə qorumalı?

**Mövzu ilə bağlı hüquq müdafiəçisi, Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a danışıb:** "İlk növbədə ölkə üzrə həm şəhər, həm də xüsusilə kənd məktəblərində genişmiqyaslı və davamlı monitorinqlər aparılmalıdır. Bu monitorinqlər formal yox, real vəziyyəti üzə çıxaran mexanizm olmalıdır. Çünki statistik olaraq qız uşaqlarının adları məktəb sənədlərində yer alsa da, faktiki davamiyyətlə sənədlər arasında ciddi uyğunsuzluq mövcuddur. Xüsusən də kənd məktəblərində 3-cü sinifdən sonra qızların adı sinif jurnallarında qalır, amma özləri məktəbə gəlmir. Bu, artıq sistemli bir problemdir və təsadüfi hal deyil.

Bu problemin başlanğıcı yalnız ailədən yox, birbaşa məktəbdən başlayır. Məktəb rəhbərliyi, müəllimlər və yerli təhsil strukturları qız uşaqlarının davamiyyətinə real nəzarət etməlidir. Valideynlərlə formal yox, ciddi və nəticəyönümlü iş aparılmalıdır. Niyə qızlar məktəbə buraxılmır? Hansı düşüncə tərzi ailələri buna sövq edir? Bu suallar cavabsız qaldıqca problem dərinləşir.

Sovet dövrünə münasibət birmənalı olmasa da, obyektiv etiraf etmək lazımdır ki, həmin illərdə qızların təhsildən kənarda qalması məktəb daxilində ciddi nəzarət mexanizmləri ilə qarşısı alınırdı. Məktəb yalnız tədris yox, həm də sosial nəzarət funksiyasını yerinə yetirirdi. Bu gün isə bu funksiyanı icra edən institusional mexanizm demək olar ki, yoxdur. Halbuki müasir dövrdə də elə bir qurum və ya sistem yaradılmalıdır ki, qız uşaqlarının ən azı 9-cu sinfə qədər məcburi təhsili real şəkildə təmin olunsun".

**Novella Cəfəroğlu qeyd edib ki, məsələ yalnız qanunla həll edilmir, bu istiqamətdə geniş maarifləndirmə və təbliğat işi aparılmalıdır:** "Qızların 9-cu sinfi bitirməsinin vacibliyi ailələrə davamlı şəkildə izah edilməlidir. Daha sonra isə alternativ yollar göstərilməlidir: kim peşə təhsili ala bilər, kim kollecə daxil ola bilər. Ailələr bilməlidir ki, qızın təhsili onun ailədən uzaqlaşması deyil, əksinə, ailənin sosial və iqtisadi güclənməsidir.

Bu təbliğat mətbuatda, televiziya kanallarında, sosial mediada, rayon və kənd icmaları ilə birbaşa görüşlər vasitəsilə aparılmalıdır. QHT-lər, ictimai fəallar, psixoloqlar, pedaqoqlar rayonlara getməli, yerli camaatla açıq söhbətlər etməlidir. Çünki problem qanunda yox, şüurda və düşüncə tərzindədir. Beyində dəyişiklik baş verməsə, heç bir qərar işləməyəcək".

**Hüquq müdafiəçisinin fikrincə, digər mühüm məsələ ali təhsillə bağlıdır:** "Vaxtilə universitetlərin yataqxanaları mövcud idi və qızlar təhlükəsiz, nəzarətli şəraitdə təhsil ala bilirdilər. Bu gün isə bir çox ailənin qızını böyük şəhərə oxumağa göndərməyə maddi imkanı yoxdur. Kirayə evlərin baha olması, nəzarətsiz mühit qorxusu ailələri narahat edir. Məhz buna görə də ailələr "qız oxusa da, problem olacaq" düşüncəsi ilə təhsilə qarşı çıxırlar.

Əgər yataqxanalar yenidən geniş şəkildə fəaliyyət göstərsə, həm təhlükəsizlik, həm də nəzarət baxımından ailələrin etimadı artar. Çünki yataqxanalarda nəzarət sistemi mövcud idi, halbuki kirayə evlərdə bu nəzarət yoxdur və bu da ailələrin qorxularını artırır. Nəticədə ailə düşünür ki, qız evdə qalsa daha "təhlükəsizdir"".

Bütün bu xırda görünən, amma əslində bir-birini tamamlayan amillər qızların təhsildən uzaqlaşdırılmasına, erkən nişanlanmasına və 14-15 yaşlarında ailə qurmağa məcbur edilməsinə gətirib çıxarır. Ailə qızı yük kimi görməyə başlayır, onun təhsil almasını yox, tez ərə getməsini çıxış yolu hesab edir. Məhz buna görə də erkən nikahlar bitmir. Beləliklə, hesab edirəm ki, erkən nikahın və qızların təhsildən kənarda qalmasının qarşısını almaq üçün cəmiyyətin düşüncə tərzi dəyişməlidir. Qanun, nəzarət, maarifləndirmə, sosial dəstək və infrastruktur paralel şəkildə işləməlidir".

**Hüquqşünas Ramil Süleymanov isə qeyd edib:** "Əgər bir halda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, daxili işlər orqanlarının, hətta yerli icra və idarəetmə strukturlarının bu məsələlərdə gücü çatmırsa, deməli, əsas problem maarifləndirmənin lazımi səviyyədə aparılmamasıdır.

Əgər dövlət bu insanların maarifləndirilməsini sistemli və effektiv aparat kimi təşkil edə bilmirsə, bu halda estafeti qeyri-hökumət təşkilatlarına verməlidir. Lakin burada sırf "layihə xatirinə layihə" prinsipi ilə hazırlanmış, real təsir gücü və effektivliyi aşağı olan təşəbbüslərdən söhbət gedə bilməz. Söhbət konkret nəticələrə hesablanmış, ölçülə bilən və real dəyişiklik yaradan işlərdən gedir.

Bu sahədə ciddi şəkildə fəaliyyət göstərilməli, həm kütləvi informasiya vasitələrində, həm də özəl reklam yayımı ilə məşğul olan yerüstü reklam şirkətləri ilə əməkdaşlıq qurulmalıdır. Dövlət bu prosesdə mütləq şəkildə müəyyən güzəştlər etməli, yaxud güzəştli şərtlərlə reklam panolarını sosial maarifləndirmə məqsədilə istifadəyə verməlidir. Eyni zamanda KİV-lərə, o cümlədən internet resurslarına bu istiqamətdə konkret və məqsədli ödənişlər ayrılmalıdır.

Bununla paralel olaraq qanunvericilik bazasının kifayət qədər sərtləşdirilməsi də qaçılmaz tədbirlərdən biridir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

## Hicran Hüseynova: "Ataların ödənişli məzuniyyətə çıxması müsbət dəyişikliklərə səbəb olur"



**Araşdırmalara görə, dünyada ataların ödənişli məzuniyyət hüququndan istifadə etməsi müsbət dəyişikliklərə səbəb olur.**

"Report" xəbər verir ki, bunu Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova komitənin bugünkü iclasında kişilərə ödənişli atalıq məzuniyyətinin verilməsi təklifindən danışarkən deyib.

Komitə sədri qeyd edib ki, atalara 14 gün ödənişsiz məzuniyyət hüququ verilsə də, onlar bundan istifadə etmirdilər: "Uşağın doğulması zamanı problemlərin yaşanması qadınların həmin dövrdə psixoloji çətinliklərlə üzləşməsi ilə bağlıdır. Bu məqamda qadına həyat yoldaşı dəstək olmalıdır. Düşünülənin əksinə, bu, kişiləri hörmətdən salmır, onlara olan etibarı, hörməti artırır".

## Bəzi dərmanları təyyarəyə buraxmayacaqlar




**Məşhur bloger Azər Qərib son paylaşımlarından birində hava nəqliyyatında dərman daşınması ilə bağlı tətbiq olunan yeni tələblərdən danışıb.**

Musavat.com xəbər verir ki, onun sözlərinə görə, dərmanlarla bağlı 2026-cı ildən etibarən bəzi məhdudiyyətlər yaranacaq.

Blogerin açıqlamasında bildirilir ki, yenilənmiş tələblərə əsasən, təyyarə ilə səyahət zamanı dərman vasitələri yalnız istehsalçı tərəfindən təqdim olunan orijinal qablaşdırmada daşına bilər. Dərmanların başqa qablara tökülməsi, paketlənməsi və ya açıq şəkildə aparılması artıq yolverilməz hesab olunur. Bu cür hallarda dərmanlar təhlükəsizlik yoxlaması zamanı müsadirə edilə və sərnişin əlavə çətinliklərlə üzləşə bilər.

Azər Qərib qeyd edib ki, bu qaydaların əsas məqsədi uçuşların təhlükəsizliyini təmin etmək, həmçinin dərman vasitələrinin tərkibi və mənşəyi ilə bağlı yarana biləcək sualların qarşısını almaqdır.

## "Bibiheybət" zavodunun işçiləri digər zavodlara köçürüləcək



**Son illərdə faydalı istismar müddətini başa vurduğundan və bununla bağlı müştərisi olmadığından bir sıra gəmilər istismardan çıxarılıb.**

APA ASCO-ya istinadən xəbər verir ki, mütəmadi şəkildə aparılan qiymətləndirməyə uyğun olaraq, köhnə gəmilərin istismardan çıxarılması səbəbilə balansda olan gəmi sayının əvvəlki illərə nisbətən aşağı düşəcəyi gözlənilir.

Bildirilib ki, optimal gəmi sayı üçün tələb olunan təmir işlərinin həcmi ASCO-nun strukturunda olan gəmi təmiri zavodlarının da optimallaşdırılmasını zəruri edir: "Eyni zamanda ölkəmizdə hazırda dövlətə məxsus 3 gəmi təmiri və tikintisi zavodunun fəaliyyət göstərməsi, bu zavodların əsas sifarişçisinin ASCO olması gəmi təmiri xidmətlərinin optimallaşdırılmasi məsələsinə hər 3 zavod prizmasından baxılmasına zərurət yaradır. Bununla əlaqədar uzunmüddətli gəmi təmiri tələbatı təhlil olunub və bu tələbatın qarşılanması imkanları qiymətləndirilib. Təhlil və qiymətləndirmələr nəticəsində gəmi təmiri tələbatının qarşılanması üçün 2 zavodun kifayət edəcəyi müəyyən olunub".

Qeyd edilib ki, "Zığ" gəmi zavodunun son illərdə daha çox investisiya qoyuluşları edilərək texniki vəziyyətinin yaxşılaşdırılması və istehsalatın modernləşdirilməsi, "Bibiheybət" GTZ-də isə bundan sonra əlavə kapital qoyuluşlarına ehtiyacın olması, bunlarla yanaşı, ölkədə təmir və tikinti işlərini təmin edə bilən Bakı gəmiqayırma zavodu (BGZ) kimi müasir zavodun mövcudluğu nəzərə alınaraq, "Bibiheybət" GTZ-nin təmir portfelinin BGZ-yə köçürülməsi/relokasiyası optimal təklif kimi müəyyən olunub: "Təbii ki, bu proses zamanı zavodda çalışan əməkdaşlarımızın hüquqları və mövcud iş yerləri tam nəzərə alınacaq, onlara uyğun imkanlar yaradılacaq. Bununla bağlı ASCO rəhbərliyi də işçilərlə görüş keçirib, onların narahatlıqlarını dinləyib və diqqətlərinə çatdırıb ki, heç bir işçi bu proses zamanı ixtisara məruz qalmayacaq, hər bir addım şəffaf şəkildə həyata keçiriləcəkdir".

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

# Deputatlardan "toy mafiyası"na üsyan

## Neqativ hallara necə son qoymalı?

**Milli Məclisdə səslənən fikirlər bir daha göstərdi ki, Azərbaycanda toy mövzusu artıq təkcə ailə məsələsi deyil, sosial və ictimai problemə çevrilib. Milli Məclisin iclasında çıxış edən deputat Razi Nurullayev bildirib ki, ölkədə toy mədəniyyəti ciddi şəkildə deformasiyaya uğrayıb. Onun sözlərinə görə, şadlıq evlərində süfrələrdə həddindən artıq yemək çeşidləri təqdim olunur, tonlarla qida tullantıya çevrilir, bahalı dekorasiyalar və şou proqramlar ailələri ağır maliyyə yükü altına salır.**

Mövzuya deputat Aqil Abbas da münasibət bildirib. O, toylarla bağlı narahatlıqları bölüşdüyünü desə də, inzibati üsullarla bu problemin həllinin mümkün olmayacağını qeyd edib.

Deputatların bu çıxışları göstərir ki, "toy mafiyası" adlandırılan bahalı və nümayişkaranə toy sistemi artıq parlament səviyyəsində açıq tənqid olunur. Lakin əsas sual cavabsız qalır: bu israfçılığa qanunla son qoymaq mümkündürmü, yoxsa problemin həlli yalnız cəmiyyətin öz seçimindən və düşüncə dəyişikliyindən asılıdır? Görünən odur ki, toy mədəniyyətində real dəyişiklik yalnız inzibati tədbirlərlə deyil, ictimai qınaq və maarifləndirmə ilə mümkündür.

**Yazıçı-kulturoloq Aydın Xan Əbilov mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, toylar Azərbaycan xalqını digər xalqlardan fərqləndirən, ən gözəl dəyərləri özündə birləşdirən kulturoloji hadisədir:** "Toy mətbəximizi, incəsənətimizi, süfrə mədəniyyətimizi və çoxsaylı elementləri özündə birləşdirir. Toy biznesi, ümumiyyətlə, Azərbaycan sənayesinə 2 milyarda qədər xeyir verən, əlavə iş yeri yaradan və minlərlə insanın məşğul olduğu bir sahədir. Fikir verin, toyda nə qədər sahələr birləşir və bundan xeyli sayda insan qazanc əldə edir. Belə olan halda oturduğumuz ağacın budağını baltalamaq nəyə lazımdır? Toylarda insanlarımız sosiallaşır, bir-birilərini görürlər. Toylar mərhəmət və sosial yardımlaşma aksiyasına çevrilir. Yaxınlar nikaha şahidlik edirlər, ağsaqqallar xeyir-dua verir. İndi biz deyirik ki, bunların hamısını dayandıraq".

**Kulturoloq deputat Razi Nurullayevin bəzi məsələlərdə haqlı olduğunu qeyd edərək deyib ki, toyları kommersiya xarakterli hadisəyə çevirmək olmaz:** "Bu, mənəvi və ruhi hadisədir. Burada iki nəsil birləşir, gənclər ailə qurur. Biz dəfələrlə təklif etmişik ki, qidaların çoxluğunu azaldın. O yeməklərin bir hissəsini uşaq və qocalar evinə verin. Musiqiçilərə həddindən artıq pul verilir. Biz toyların təsnifatını dəyişdirməliyik. Yuxarı təbəqənin nümayəndəsinin toyu qidalarla həddindən artıq boldursa, orta və aşağı təbəqə bir qədər fərqli olmalıdır. Aşağı və orta təbəqə çalışmalıdır ki, ayağını yorğanına görə uzatsın. Tənqid edənlər belə toyda bir balaca yemək zəif olanda ağız büzürlər".



**A.Əbilov deyir ki, Azərbaycan toylarında müəyyən islahatlar baş verib:** "Əvvəllər qız və oğlan toyu ayrı olurdu, "fata kəsdi" və "ciyər axşamı", qadın və kişi elçiliyi kimi müxtəlif mərasimlər keçirilirdi. İndi bunların sayı azalıb və daha çox restorandakı toy mərasimi ətrafında cəmləşib. Bundan o yana daha nə qədər sadələşdirə bilərik ki? Biz öz milli-mənəvi dəyərlərimizin hamısını vururuq. Bir ara da yas mərasimlərini müzakirəyə çıxardılar. 40 günlük yas mərasimini 3 gündən də az etdilər və yasda ehsanın ləğvinə cəhdlər oldu. İndi də toyu tezbazar bir kampaniya çərçivəsinə salmaq istəyirlər.

Kimsə həddindən artıq yemək bişirirsə, sizə nə dəxli var? Hər kəs bunu öz cibinin pulu ilə edir. Belə getsə, sabah da gəlib bizə deyəcəklər ki, ad gününüzü qeyd etməyin. Belə qadağaların axırını biz görmüşük. Sovet hökuməti elə belə qadağalarla özünü dağıtdı. Azərbaycan cəmiyyəti özü üçün unikal və demokratik sistem qurub. Hər kəs bir-birindən razıdır və qarşılıqlı olaraq köməkləşirlər.

Türkiyədə heç kim toylarla bağlı təklif vermir, tənqid etmir. Orada gəlinə kilolarla qızıl bağışlayırlar. Ancaq Azərbaycanda özünü piar etmək istəyənlər toyu və yası müzakirəyə çıxarırlar və qamçılayırlar".

**Xalq şairi Sabir Rüstəmxanlı qəzetə bildirib ki, toy ailələrin və şəxslərin şəxsi ailə bayramı olsa da, həm də ictimai bir məsələdir:** "Yaslara etiraz ediləndən sonra 3-7 mərasimləri birləşdirildi, cümələr isə məhdudlaşdırıldı. İnsanlar maddi baxımdan çətinlik çəkdilər. Bu baxımdan toylar da qaydasına salınmalıdır. Azərbaycanda toyxana mafiyası var. Onlar qiymətləri günü-gündən artırırlar. Masaların qiyməti fantastik dərəcədə yüksəkdir. Çox vaxt ev yiyəsi restorana borclu qalır. Gəlinlə bəy şənlikdən çox ödəyəcəkləri məbləği fikirləşirlər. Bir dəstə quldur isə bundan qazanc güdür. Ona görə də toylarda da dəqiq normativlər müəyyənləşməli və ona uyğun olaraq camaat toyxanalarda toy etməlidir. Ya da ki, "palatka toyu" dövrünə qayıdaq. İnsanlar yarım saat yeməyini yeyib, sonra da rəqs edib çıxıb gedirdilər. İndi isə saat 6-dan gecə 11-ə kimi səs-küydən insanın beyni dağılır. Müğənnilər disk qoyub fonoqram oxuyurlar. Bu anormallıqlara son qoyulmalıdır".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Aqrar sektorda tempi qaldırmaq çağırışı - iqtisadçı deyir ki...

## Qısamüddətli təşviqlər yox, sistemli islahatlar lazımdır

**Deputat Əli Məsimli Milli Məclisin iclasındakı çıxışı zamanı bir sıra vacib məsələlərə diqqət çəkib. O, qeyri-neft sektorunun problemlərindən və perspektivlərdən bəhs edərək deyib ki, 2024-cü ildə ÜDM-in həcminin 68 faizini qeyri-neft sektoru təşkil edirdisə, 2029-cu ildə bunun 80 faizi ötəcəyi gözlənilir: "Qeyri-neft sektoru üzrə qoyulan hədəfə nail olunması xeyli dərəcədə üç sahənin - aqrar sahə, emal sənayesi və turizm sahəsində mövcud potensialdan optimal əlaqələndirilmiş şəkildə istifadənin səmərəlilik dərəcəsindən asılı olacaq".**



Deputat bildirib ki, inkişaf etmiş kənd təsərrüfatı iqtisadi sabitliyin başlıca şərtidir: "Ötən ildən başlayaraq artıq ikinci ildir ki, aqrar sahədə artım tempi ÜDM-in artım tempindən aşağı enib və bu ilin 11 ayında cəmi 1,1 faiz təşkil edib. Təsadüf təkrar olunmur, əgər olunursa, o artıq təsadüf xarakteri daşımır. Ona görə də aqrar sahədə artım tempinin iki il ardıcıl olaraq minimuma enməsi çox ciddi siqnaldır".

Ə.Məsimli daha sonra bildirib ki, mövcud potensialdan dolğun və səmərəli istifadə edilməsi ölkədə yerli istehsala əsaslanan ərzaq bolluğunun yaradılması, bu sahədə çalışan 1,8 milyon nəfərə yaxın insanın və ya məşğul əhalinin 35 faizindən çoxunun həyat səviyyəsinin yaxşılaşdırılması, emal sənayesinin xammal bazasının möhkəmləndirilməsi, ərzaq təhlükəsizliyimizin təminatlılığının yüksəldilməsi, insanların iş dalınca regionlardan Bakıya gəlişinin sürətinin xeyli azaldılması və sair bu kimi məsələlərin həllinə çox müsbət təsir göstərə bilər.

**İqtisadçı alim Vüsalə Əhmədova** hesab edir ki, aqrar sahədə artım tempinin iki il ardıcıl zəifləməsi həqiqətən də struktur problemlərinin mövcudluğuna işarədir. "Yeni Müsavat"a şərhində ekspert qeyd etdi ki, bu tendensiyanı qırmaq üçün qısamüddətli təşviqlər yox, sistemli və institusional dəyişikliklər lazımdır: "Hazırkı zəifləmənin əsas səbəblərindən birincisi məhsuldarlığın aşağı olmasıdır. Məhsuldarlığı artırmanın yollarını aqrar işçilər daha yaxşı bilərlər. Aqrar artımı ən çox boğan amillərdən biri su qıtlığı və torpaqların deqradasiyasıdır. Suvarma sistemlərinin modernləşdirilməsi, şoranlaşmış və eroziyaya uğramış torpaqların bərpası burada fokuslanılacaq əsas faktorlardır. Fermerlərimizin böyük hissəsi investisiya edə bilmirlər, çünki risk yüksəkdir. Bunun üçün uzunmüddətli və aşağı faizli kreditlər verilməli, subsidiya mexanizmləri nəticəyönümlü olmalıdır. Azərbaycanda kənd təsərrüfatı çox xırda və parçalanmış strukturda fəaliyyət göstərir. Nəticədə, maya dəyəri yüksək olur, texnologiya tətbiqi çətinləşir, fermer baza gücünü itirir. Bu səbəbdən, könüllü və iqtisadi cəhətdən cəlbedici kooperativlərin təşviqi, saxlama, çeşidləmə və logistika mərkəzlərinin regionlarda yaradılması mütləqdir. Fermer - emalçı - ixracatçı zənciri qurulmalıdır. Xam məhsul istehsalı aqrar sektorda tempi qaldırmaq üçün kifayət etmir. Yerli emal müəssisələrinin sayı və gücü artırılmalıdır. Həmçinin rəqabətqabiliyyətli məhsullar üzrə ixtisaslaşma və xarici bazarlara uyğun sertifikatlaşma vacibdir".

**Xarici təcrübəyə diqqət çəkən ekspert bildirdi ki, aqrar sahədə davamlı artım subsidiya həcmi ilə yox, düzgün qurulmuş institutlar, texnologiya və bazar mexanizmləri ilə əldə edilib:** "Məsələn, İsrail təcrübəsi göstərdi ki, su qıtlığı aqrar inkişaf üçün bəhanə deyil, damcı suvarmanın icadı və total tətbiqi kimi düzgün texnologiyanın qurulması problemdən çıxış yoludur. Həmçinin Hollandiya, ərazi baxımından kiçik olsa da, ABŞ-dən sonra dünyanın 2-ci ən böyük aqrar ixracatçısıdır. Bu ölkə artımı torpaqdan yox, bilikdən və texnologiyadan əldə edib. Polşada 1990-cı illərdə Azərbaycan kimi xırda fermer təsərrüfatları mövcud idi. Könüllü kooperativlərə ciddi vergi və maliyyə dəstəyi verildi və bu gün Polşa Avropanın əsas ərzaq ixracatçılarından birinə çevrilib. Türkiyə aqrar sahədə sürətli artımı regional ixtisaslaşma hesabına əldə edib. Bu ölkədə aqrar sektor, xam məhsul istehsalçısı kimi yox, ixracyönümlü sənaye kimi fəaliyyət göstərir. Qeyd etdiyim kimi, Hollandiya və İspaniya Aİ-nin əsas kənd təsərrüfatı məhsulları ixracatçılarıdır. Hollandiya 2024-cü ildə təxminən 128.9 milyard avro dəyərində kənd təsərrüfatı məhsullarını dünya bazarına çıxarıb. İspaniya isə keçən il 36.2 milyon ton aqro-qida məhsulu ixrac edib ki, bunun da ümumi dəyəri təxminən 74.2 milyard avro təşkil edir. Aİ-nin ümumilikdə kənd təsərrüfatı ixracı 2024-cü ildə 235.4 milyard avro təşkil etmişdir ki, bu ixracın da böyük hissəsi Hollandiya və İspaniyanın payına düşür. İspaniya və Hollandiya təcrübəsi göstərir ki, aqrar sahədə artımı bərpa etmək üçün, ixrac yönümlü sektor siyasəti, müasir texnologiyalar, məhsul diferensiasiyası, əlavə dəyər yaratmaq və beynəlxalq bazarlarda rəqabət qabiliyyəti vacibdir".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 230 (8840) 18 dekabr 2025

**Sosial mediada məşhur simalardan biri kimi tanınan iranlı bloger Anahita Naço 388 kosmetik əməliyyat keçirdiyini deyib. "Yeni Müsavat" xarici mediaya istinadla xəbər verir ki, bununla da Naço Ginnesin Rekordlar Kitabına düşdüyünü və "dünyanın ən nazik beli"nə sahib olduğunu açıqlayıb.**

# Estetik əməliyyatlara aludəçiliyin ağır fəsadları - xanımlar oxusun

## Həkimlər deyir ki, plastik əməliyyatların sayı məhdud deyil, amma hər müdaxilə sağlamlıq üçün riskdir



Naço bildirib ki, kosmetik prosedurlara sevgilisinin xahişi ilə başlayıb və hazırda hər ay üzünün künclərinə və yanaqlarına 50 kub santimetr gel vurulmasına məcbur qalır.

Onun bu açıqlamaları Aydın Zəvvareinin "YouTube" kanalına verdiyi müsahibədən sonra regional mediada geniş rezonans doğurub. Mütəxəssislər isə "ekstremal" kosmetik müdaxilələrin ciddi risklər daşıdığına diqqət çəkirlər. Həkimlərin xəbərdarlığına görə, bu cür prosedurlar toxumaların zədələnməsi, sinir zədələri və davamlı bakterial infeksiyalar da daxil olmaqla, ağır fəsadlara yol aça bilər.

Bir xanım həyatı boyu plastik əməliyyata maksimim necə dəfə girə bilər?

**Plastik cərrah, Həkimləri Təkmilləşdirmə İnstitutunun dosenti Rəşad Babayev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, müasir dövrdə anesteziologiya xeyli inkişaf edib və ümumi narkozun yan təsirləri minimuma enib. Onun sözlərinə görə, bu səbəbdən ümumi anesteziya ilə aparılan əməliyyatları hər 3-6 aydan bir icra etmək mümkündür. Yerli keyitmə ilə həyata keçirilən kiçik kosmetoloji prosedurlar isə həftədə və ya 10 gündə bir dəfə edilə bilər. R.Babayev qeyd edib ki, pasiyentlərindən birinin 48-50-ci əməliyyatını özü həyata keçirib. Həmin şəxs bədənin müxtəlif nahiyələrində əməliyyatlar etdirib; əvvəl mədə kiçiltmə, bir neçə dəfə isə keysəriyyə əməliyyatı olub. Pasiyentin vəziyyətinə uyğun olaraq müdaxilələr mərhələli şəkildə aparılıb. Dosentin sözlərinə görə, anesteziyanın yan təsirləri az olduğuna görə 3-6 aydan bir ümumi anesteziya, 10-15 gündən bir isə yerli keyitmə ilə kiçik prosedurların icrası müasir tibdə mümkündür. O əlavə edib ki, sözügedən xanımın qeyd etdiyi gel vurulması və əməliyyat sayı nəzəri baxımdan mümkün olan həddə daxildir.

**Həkim-ekspert Şahvələd Məmmədov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bir il ərzində çoxsaylı əməliyyatların aparılması hər dəfə ağır anesteziyaya məruz qalmaq anlamına gəlmir. Onun sözlərinə görə, bir çox prosedurlar yerli və xırda anesteziya vasitəsilə icra olunur. Bununla belə, altı ay ərzində ardıcıl plastik əməliyyatların aparılması risklidir. Ş.Məmmədov vurğulayıb ki, plastik əməliyyatlar yalnız tibbi göstəriş olduqda - abdominoplastika, mədə kiçiltmə, rinoplastika kimi müdaxilələr zamanı əsaslandırıla bilər.

Ekspert təəssüflə qeyd edib ki, ölkəmizdə digər ölkələrlə müqayisədə estetik və plastik əməliyyatlara meyl daha yüksəkdir. Onun fikrincə, bu əməliyyatlar risk daşıyır və dəfələrlə təkrarlanan estetik-plastik müdaxilələr xüsusilə təhlükəlidir.

Ş.Məmmədov insanlara ehtiyatlı olmağı tövsiyə edərək bildirib ki, ekstremal kosmetik müdaxilələr və təcili tibbi əməliyyatlar ayrı-ayrı hallardır. Belə müdaxilələr zamanı sinir zədələnməsi, hormonal pozğunluqlar və digər ciddi fəsadlar yarana bilər. Ekspertin sözlərinə görə, rekord sayda əməliyyat keçirən şəxslərin təcrübəsi hər kəs üçün uyğun deyil və bunu hər insanın etməsi mümkün deyil.

Mövzu ilə bağlı digər ölkələrin də təcrübəsinə nəzər saldıqda görürük ki, plastik əməliyyatların insanın ömrü boyu neçə dəfə ediləcəyi ilə bağlı tibdə konkret bir rəqəm mövcud deyil. Həkimlər bu məsələyə statistik və ya say əsaslı deyil, fərdi sağlamlıq göstəriciləri və risklər prizmasından yanaşırlar. Yəni bir insan üçün uyğun hesab edilən müdaxilə sayı digəri üçün təhlükəli ola bilər.

Plastik cərrahların beynəlxalq birlikləri vurğulayır ki, hər bir cərrahi və ya qeyri-cərrahi kosmetik prosedur orqanizm üçün travmadır. Təkrar əməliyyatlar zamanı toxumaların elastikliyi azalır, çapıq toxuması artır, qan dövranı zəifləyir və bu da növbəti müdaxilələrin riskini yüksəldir. Xüsusilə üz nahiyəsində tez-tez edilən dolğular, botoks və digər invaziv prosedurlar sinir zədələnməsi, toxuma nekrozu və xroniki infeksiyalar kimi ağır fəsadlara səbəb ola bilər.

Amerika Plastik Cərrahlar Cəmiyyətinin (ASPS) etik qaydalarında qeyd olunur ki, həkim pasiyentin istəyi tibbi baxımdan təhlükəli həddə çatdıqda əməliyyatdan imtina etməlidir. Cəmiyyətin bu mövqeyi ondan irəli gəlir ki, plastik cərrahiyyə sağlamlığı yaxşılaşdırmalı, onu risk altına atmamalıdır. ASPS-in bir sıra rəsmi açıqlamalarında təkrarlanan kosmetik müdaxilələrin bədən toxumalarında geridönməz dəyişikliklər yaratdığı xüsusi vurğulanır.

Məşhur amerikalı plastik cərrah və tədqiqatçı Dr. Rod Rohrich də bu mövzu ilə bağlı çıxışlarında bildirib ki, "problem əməliyyatların sayında deyil, bədənin həmin əməliyyatlara artıq dözə bilməməsindədir". Onun sözlərinə görə, eyni nahiyəyə dəfələrlə müdaxilə edilməsi estetik nəticəni yaxşılaşdırmır, əksinə, üz və bədən anatomiyasını pozur.

Həkimlər həmçinin psixoloji amili də önəmli hesab edirlər. Əgər insan davamlı olaraq görünüşündən narazıdırsa və real ehtiyac olmadan yeni əməliyyatlar tələb edirsə, bu zaman cərrahi müdaxilə yox, psixoloji dəstək daha doğru seçim sayılır. Beynəlxalq tibbi praktikada belə hallarda pasiyentin psixoloq və ya psixiatr müayinəsinə yönləndirilməsi tövsiyə olunur.

Nəticə etibarilə, dünyada tibb mütəxəssislərinin ortaq qənaəti belədir: plastik əməliyyatların rəsmi maksimum sayı yoxdur, lakin təhlükəsiz əməliyyat sayı da sonsuz deyil. Hər yeni müdaxilə əvvəlkindən daha çox risk daşıyır və bu risklər gözəllik naminə sağlamlığın itirilməsi ilə nəticələnə bilər.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



# Bakıda yayılan xəstəlik təhlükəli H3N2 virusudur? - həkimdən xəbərdarlıq

## "Müraciət edənlər arasında pnevmoniyadan ağırlaşmalar çoxdur"

**Son günlər uşaqlar arasında naməlum mənşəli xəstəliklə bağlı narahatlıq artıb. Valideynlər övladlarında günlərlə davam edən yüksək hərarət və halsızlığın səbəbini müəyyənləşdirməkdə çətinlik çəkdiklərini bildirirlər.**

Bir sıra ölkələrdə yayılan H3N2 virusunun ölkəmizdə də yayılması ilə bağlı təşviş yaransa da, rəsmi qurumlar hələlik bu istiqamətdə hər hansı təsdiqlənmiş məlumat açıqlamayıblar. Bununla belə, əhali arasında xəstəliyin qeyri-adi gedişi ciddi narahatlıq doğurur. Paytaxt sakinlərinin sözlərinə görə, 39-40 dərəcəyədək yüksələn hərarət və güclü titrətmə müşahidə olunsa da, öskürək, boğaz ağrısı kimi klassik respirator simptomlar əksər hallarda olmur. Bu isə xəstəliyin yeni virus olub-olmaması ilə bağlı suallar yaradır.

Qeyd edək ki, son günlər bir sıra ölkələrdə A tipli qrip virusunun H3N2 ştammının yayılması ilə bağlı məlumatlar yayılıb. Ölkənin səhiyyə qurumları bu ştammın dövriyyədə olduğunu bildirib və əhaliyə qoruyucu tədbirlərə əməl etməyi, xüsusilə də risk qrupunda olan şəxslərə peyvənd olunmağı tövsiyə edib. Virusun Türkiyədə və Ermənistanda da aşkarlandığı bildirilir. Səhiyyə mütəxəssisləri qeyd edirlər ki, virusun əlamətləri hər kəsdə eyni olmaya bilər və bəzi hallarda yüksək hərarət, halsızlıq və ümumi zəiflik klassik öskürək və boğaz ağrısı olmadan da müşahidə edilə bilər. Bu səbəbdən xəstəlik əlamətləri uzun müddət davam etdikdə həkimə müraciət etmək və özünü müalicədən çəkinmək tövsiyə olunur.

Mövzu ilə bağlı Musavat.com-a açıqlama verən **pediatr Gülşən Əliyeva** bildirib ki, hazırda uşaqlar müxtəlif şikayətlərlə həkimə müraciət edirlər. Onun sözlərinə görə, əsasən yüksək hərarət - 39-40 dərəcəyədək temperatur müşahidə olunur. Valideynlər çox zaman dərhal həkimə müraciət etmir, bir neçə gün, bəzən isə 10 günədək ev şəraitində müxtəlif simptomatik dərmanlardan istifadə edirlər. Nəticədə uşaqlar artıq müayinəyə gətiriləndə pnevmoniya aşkar olunur. Həkimin sözlərinə görə, bu il müraciət edən uşaqlar arasında pnevmoniya ilə ağırlaşan hallar üstünlük təşkil edir.

Gülşən Əliyeva qeyd edib ki, son günlər bir neçə gün davam edən hərarətdən sonra qusma, ürəkbulanma və ishal şikayətləri ilə müraciətlər də artıb. Onun sözlərinə görə, hər il olduğu kimi, bu il də uşaqlar arasında kəskin respirator infeksiyalar və mədə-bağırsaq infeksiyaları daha çox yayılıb. Xəstəliklər uşaqlarda müxtəlif dərəcədə və fərqli ağırlıqda keçir.

Pediatr vurğulayıb ki, müalicə hər bir uşağa fərdi şəkildə, orqanizmin xüsusiyyətləri nəzərə alınmaqla təyin olunur. Ümumilikdə isə müalicənin nəticəsi və proqnozu yaxşıdır: həkimə müraciət edən uşaqlar sağalır və aparılan müalicə qənaətbəxş nəticə verir.

**Həkim valideynlər arasında geniş yayılmış "uşaq xəstələnən kimi sistem vurulması" məsələsinə də münasibət bildirib. Onun sözlərinə görə, venadaxili infuziya yalnız ciddi tibbi göstəriş olduqda və mütləq xəstəxana şəraitində aparılmalıdır:** "Əgər uşaqda ciddi maye itkisi müşahidə olunursa, yalnız bu halda müvafiq göstərişlər əsasında stasionar şəraitdə venadaxili köçürülmə həyata keçirilə bilər. Ambulator şəraitdə, yəni evdə və ya poliklinika səviyyəsində venadaxili infuziyaların aparılması isə düzgün hesab olunmur".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 230 (8840) 18 dekabr 2025

Dekabr


# Daimi stresin dişlara zərarli təsirləri açıqlanıb



**"Daimi stres diş ətinin sağlamlığına ciddi zərər verir. Bu da gingivit və periodontit kimi diş əti xəstəliklərinə səbəb ola bilər". Bu barədə tanınmış rusiyalı həkim Dmitri Şavrov Gazeta.ru-ya açıqlamasında bildirib. Onun sözlərinə görə, əsəb bədənin diş ətlərinə mənfi təsir göstərən kortizol hormonu istehsal etməsinə səbəb olur. Bu, immunitet sistemini zəiflədir, bakteriyaların yayılmasını asanlaşdırır, eləcə də kollagen istehsalını azaldır və toxumaları daha həssas edir.**

Bundan əlavə, kortizol iltihabı artırır və qan damarlarını sıxır. Bu, diş ətlərinə oksigen və qida maddələrinin tədarükünü azaldır və onların sağalma prosesini ləngidir. Ekspert vurğulayıb ki, xroniki stres diş əti problemlərini daha da ağırlaşdırır. Buna görə də, emosional vəziyyətii idarə etmək ağız sağlamlığı üçün vacibdir.



## Uzunömürlülüyün iki sadə sirri: 106 yaşlı qadın açıqladı

**Britaniyalı bir qadın 106-cı doğum gününü qeyd edərək uzunömürlülüyün iki sadə sirrini açıqlayıb. Bu barədə "Woking News and Mail" qəzeti məlumat yayıb. Coan Klark 3 dekabr 1919-cu ildə Şeffilddə anadan olub. Uşaq ikən valideynləri ilə birlikdə Hindistanda və Misirdə yaşayıb. 1941-ci ildə Klark evlənib və daha sonra iki uşaq anası olub. İkinci Dünya müharibəsi zamanı o, sursat fabrikində, daha sonra satıcı kimi çalışıb və son illərdə Uokinqdəki qocalar evində yaşayıb. Klark uzunömürlülüyünün səbəbini həyata müsbət baxışı ilə əlaqələndirir. 106 yaşlı britaniyalı qadın məsləhət görür ki, nəyin çatışmadığını yox, sahib olduğunuz şeyləri düşünün.**

O, həmçinin uzunömürlülüyün digər bir sirri kimi xeyirxahlığı da qeyd edib.

Bildirilir ki, qocalar evinin rəhbərliyi Klarkın ad gününü qeyd etmək üçün böyük ziyafət təşkil edib. Klarkın övladları, nəvələri və dostları, eləcə də parlament üzvü Al Pinkerton onun yubileyini təbrik ediblər.

## Yeni il ağacları təhlükəli ola bilər



**"Yeni il ağacları ciddi allergiyaya səbəb ola bilər". Bunu rusiyalı həkim Aleksandra Filyova deyib. O qeyd edib ki, allergiyanın səbəblərindən biri satışdan əvvəl daşınarkən və saxlanılarkən canlı ağacın qabığında və gövdəsində əmələ gələn mikroskopik kifdir. Bundan əlavə, tənəffüs yollarının selikli qişasını qıcıqlandıran təbii qatranlar mənfi reaksiyaya səbəb ola bilər. Həkim, həmçinin süni ağacın da tozlu bir yerdə saxlanıldığı təqdirdə, təhlükə yarada biləcəyini də aydınlaşdırıb. Bu halda ağacda çoxlu miqdarda məişət tozu, toz gənələri və kif sporları toplanır. "Bayramdan əvvəl ağac çıxarıldıqda allergenlər havaya aktiv şəkildə yayılır və xoşagəlməz simptomlara səbəb ola bilir: burun tutulması, tez-tez asqırma, gözlərin qızarması və qaşınması və quru öskürək bunun əlamətləridir", - deyən Filyova onu da əlavə edib ki, nadir hallarda süni ağac da dəri səpgilərinə səbəb ola bilər.**



## İranlı bloger estetik əməliyyatların sayına görə rekord vurub

**Sosial mediada məşhur simalardan biri kimi tanınan iranlı bloqer Anahita Naço 388 kosmetik əməliyyat keçirdiyini deyib.**

Oxu.Az xəbər verir ki, bu barədə "Azad İran" "Teleqram" kanalı məlumat yayıb.

Məlumata görə, bununla da Naço Ginnesin Rekordlar Kitabına düşdüyünü və "dünyanın ən nazik beli"nə sahib olduğunu açıqlayıb.

Naço bildirib ki, kosmetik prosedurlara sevgilisinin xahişi ilə başlayıb və hazırda hər ay üzünün künclərinə və yanaqlarına 50 kubsantimetr gel vurulmasına məcbur qalır.

Mütəxəssislər isə "ekstremal" kosmetik müdaxilələrin ciddi risklər daşıdığına diqqət çəkirlər. Həkimlərin xəbərdarlığına görə, bu cür prosedurlar toxumaların zədələnməsi, sinir zədələri və davamlı bakterial infeksiyalar da daxil olmaqla ağır fəsadlara yol aça bilər.

## Bunları bilirsinizmi?

* Rusiyanın meşələrinin 25%-i ölkənin Sibir ərazisində yerləşir. Bu meşə ABŞ-nin kontinental hissəsindən çox sahəni əhatə edir. Məhz bu, Rusiyanı dünyanın karbon qazını oksigenə çevirən ən böyük ölkəsi edir.
* Monqolustan insanların ən az məskunlaşdığı yerdir. Burada əhalinin sıxlığı 1.5 kvadratkilometrə 4 nəfərdir.
* Qatarla gəzməyi xoşlayanlar Londona gedə bilərlər. Orada çox səliqəli və intizamlı 270 stansiya mövcuddur.
* Hazırda dünyada ən çox xarici borcu olan ölkə ABŞ-dır( 31 trilyon dollar).
* Şosedə müxtəlif manevrlər etmək istəyənlər Almaniyaya üz tuta bilərlər. Orada yollarda məhdudiyyətlər yoxdur.
* Dünyanın ən böyük tiryək istehsalçısı Əfqanıstandır. Demək olar ki, tiryəyin 95%-i burada yetişdirilir.
* Borneo və Sumatra adalarında dünyanın ən böyük gülü yetişdirilir. Bu gülün diametri bir metrdən artıq, çəkisi isə 11 kq-dır.
* Norveçdə "Gecəyarısı Günəşi" adlı tez-tez baş verən qeyri-adi hadisə zamanı gecənin bir yarısı günəşin işıq saçdığını müşahidə edə bilərsiniz.
* Liviyanın 99% ərazisini səhra təşkil edir. Bu ölkənin bəzi bölgələrində onillərlə yağış yağmır.
* Somali daim qonşu ölkələrə hücum edən ölkədir. Somalililər daim müharibə və inqilablar içindədirlər. Məhz buna görə Somali əhalisi hətta qidanın çatışmadığı ən kasıb ölkələr siyahısına daxildir.

## İnsanlar qocalmayacaq, ömür xeyli uzanacaq: alimlər yolunu tapdılar



**Yapon alimləri tək bir mitoxondrial zülalın funksiyasının artırılmasının siçanlarda ömrü uzada və qocalmanı yavaşlada biləcəyini göstəriblər. "Aging Cell" jurnalında dərc olunmuş bir araşdırmada, COX7RP istehsalı artan heyvanların orta ömrü 6,6 faiz artıb və onların "sağlam uzunömürlülük" göstəriciləri nəzarət qrupundakından xeyli yaxşı olub.**

COX7RP, enerji istehsalının səmərəliliyini artıran və oksidləşdirici stressi azaldan sözdə mitoxondrial tənəffüs superkomplekslərinin - strukturların yığılmasında iştirak edir. Toxuma analizi göstərib ki, modifikasiya olunmuş siçanlarda mitoxondrilər daha etibarlı şəkildə fəaliyyət göstərir və daha çox enerji istehsal edir ki, bu da qocalmanın əsas molekulyar markerlərində irəliləyişlərlə müşayiət olunur.

Bədən səviyyəsində bu, qlükoza tənzimlənməsinin yaxşılaşmasında, qan yağ turşusu səviyyəsinin azalmasında və əzələ dözümlülüyünün artmasında əks olunub ki, bu amillər qocalıqda aktivliyin qorunması ilə birbaşa əlaqəlidir. Müəlliflərə görə, bu təsirlər xüsusilə dəyərlidir, çünki onlar xəstəlik modelində deyil, "normal" yaşlanma şəraitində əldə edilmişdir.

Tədqiqatçılar vurğulayırlar ki, tapıntıları yalnız heyvanlara aid olsa da, iş perspektivli bir istiqamətə işarə edir: mitoxondrilərin və onların enerji sistemlərinin funksiyasını yaxşılaşdıran dərmanlar və ya əlavələr insanlarda yaşla bağlı dəyişiklikləri yavaşlatmaq və metabolik xəstəliklərin qarşısını almaq üçün vasitəyə çevrilə bilər.

## Çinli şagird iplə tullanma üzrə dünya rekordu müəyyənləşdirib

**Çinin Quandun əyalətində orta məktəb şagirdi bir dəqiqə ərzində 422 dəfə iplə tullanaraq, bu növ üzrə dünya rekordu müəyyən edib. Çinin "Beijing Daily" qəzetinə istinadən xəbər verir. Rekord yeniyetmələr arasında keçirilən iplə tullanma turnirinin ilkin mərhələsində qeydə alınıb.**

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500